

**Cozep Borrell: "Ermənistan və Azərbaycan arasında mühüm irəliləyiş əldə olunub"**

2

# Qarabağ savaşının dəhşətli faciələri:

## AĞDABAN SOYQIRIMI



14



SƏS
№ 060 (6501) **8 aprel** 2022-ci il. **Qiymәti 60 qәpik**

# BRÜSSEL FAKTORU: İlham Əliyevin şərtləri dəyişilməz və qətidir!



**Danışıqlar yalnız Bakının irəli sürdüyü 5 maddədən ibarət təkliflərin əsasında aparılır**

2

## Ronaldodan ŞOK cavab: "İki paxıl"



16

## Ermənilər Bakıya müraciət etdilər: Xocalıda Azərbaycan postu quruldu



## Qərbin Rusiyaya qarşı sanksiyaları NİYƏ? effektsizdir

8






**"Ailə bizim üçün dövlətin əsasıdır"**

6

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın SİA-ya verdiyi müsahibəni...




**"Böyük Qayıdışla bağlı intensiv işlər görülür"**

5

"Böyük Qayıdışın tezləşdirilməsi və bütövlükdə böyük qayıdışa başlanılması prioritet məsələlərdəndir". Bu sözləri SİA-ya...

ANALİTİK+AKTUAL

# BRÜSSEL FAKTORU:

## İlham Əliyevin şərtləri dəyişilməz və qətidir!

### Danışıqlar yalnız Bakının irəli sürdüyü 5 maddədən ibarət təkliflərin əsasında aparılır



**Beləliklə, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və vasitəçilyi ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın bir araya gəldikləri ikinci Brüssel görüşü başa çatdı və bu, yalnız daha əvvəlki - 14 dekabr 2021-ci ildəki görüşün davamı deyil, həm də ölkələr arasındakı sülh gündəliyinin daha dərindən dəqiqləşdirilməsi baxımından əhəmiyyəti ilə seçildi. Daha dəqiq desək, təkcə Şarl Mişelin vasitəçiliyi ilə deyil, eyni zamanda, məhz Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi fonunda baş tutan Brüssel görüşü özündə digər bir sıra məqamları ehtiva etməkdədir. Hansılardır həmin məqamlar?**

### 4 saat yarımlıq görüşdə irəliləmələr qeydə alınıb

Xatırlatmaq yerinə düşərdi ki, mövcud formatdakı ilk üçtərəfli görüşdə Prezident İlham Əliyev və Aİ Şurasinin rəhbəri Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Aprelin 6-na qədər isə ilk görüşün davamı olaraq tərəflər arasında intensiv təmaslar aparılıb, telefon danışıqları keçirilib, müəyyən razılaşmalar baxımından dəqiqləşdirmələr aparılıb. Ancaq buna baxmayaraq, kifayət qədər məhsuldar və zaman cəhətindən çoxmüddətli keçən 4 saat yarımlıq görüşdə irəliləmələr qeydə alınıb. Bunu jurnalistlərə brifinqi zamanı Şarl Mişel də bəyan edib. Aİ Şurasının rəhbəri tərəfindən verilmiş bəyanatda təsbit edilib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlar başlasın, eləcə də hər iki ölkənin XİN-nə bununla bağlı təlimatlar da verilib.

### Maddələrin hər birinin təməlində Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi amili dayanmaqdadır

Və təbii ki, bu təlimatlar, yəni qarşıda dayanan vəzifələr bilavasitə rəsmi Bakının irəli sürdüyü 5 maddədən ibarət təkliflərin əsasında nəzərdə tutulub. Söz yox ki, həmin maddələrin hər birinin təməlində Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi amili dayanmaqdadır. Əbəs deyil ki, bəyanatda tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması və ilkin olaraq sərhədlərin delimitasiya prosesinə başlaması barədə razılıq əldə olunub. Təkcə bu maddənin icrası nəticəsində, yəni delimitasiya mexanizmi işə salınarkən sərhəddə gərginlik aradan qaldırılır - tərəflər komissiyalar şəklində dövlət sərhədlərinin müəyyən olunması üçün qarşılıqlı fəaliyyətə başlayırlar.

Lakin biz unutmamalıyıq ki, torpaqlarımızın işğala məruz qaldığı 30 ilə yaxın dövr ərzində ərazilərimizdə yüz minlərlə müxtəlif istiqamətli minalar quraşdırılıb və onların hər biri ayrı-ayrı təhlükələr saçmaqda davam edirlər. Hazırkı dövrə qədər Ermənistanın Azərbaycana təhvil verdiyi mina xəritələrində isə nəticə 100 faizlik deyil, cüzidir. Əbəs deyil ki, münaqişə başa çatandan hazırkı vaxta qədər onlarla insanımız bu və ya digər şəkildə düşmənin basdırdığı minalar səbəbindən həyatını itirib, əlil qalıb və s. Və bu xüsusda, Aİ-nin minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcədə quruculuq işlərində Azərbaycana dəstək göstərməsi təsdiq olunur.

### Aİ-nin qərəzsizlik reallığı - ATƏT MQ fəaliyyətsizliyi və qərəzləri ilə özünü mövcud arenadan təcrid etdi

Təbii ki, sülhün əldə ediləcəyi təqdirdə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi və iqtisadi məşvərət şurası mexanizminin yaradılması da vacib istiqamətə yönəlir və bu haqda da Brüssel görüşündə təsdiq edilib.

Ən əsası isə, qəbul edilmiş sənəddə Dağlıq Qarabağ ifadəsi və ya keçmişin qalığı olan ATƏT MQ həmsədrlik institutuna istinad yoxdur. Bu institut öz fəaliyyətsizliyi və qərəzləri ilə özünü mövcud arenadan təcrid edib. Artıq danışıqlar prosesi məhz Aİ-nin vasitəçiliyi ilə aparılır. Bununla da Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır ki, burada əsas məqsəd ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır.

Beləliklə, fakt budur ki, Avropa İttifaqı mövcud fəaliyyəti və vasitəçiliyi ilə qərəzsiz yanaşma tərzi nümayiş etdirir və ən əsası, qurumun rəhbəri Şarl Mişelin Prezident İlham Əliyevlə şəxsi dialoqu və təmasları da belə qənaətə gəlməyə zəmin yaradır ki, həmin reallıq sülhün bərqərar olması üçün əhəmiyyət kəsb etməkdədir.

*Rövşən RƏSULOV*

## Rəsmi sənədlər

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazisində baş vermiş təbii fəlakətlərin, texnogen qəzaların və hərbi əməliyyatların nəticələrinin aradan qaldırılması ilə əlaqədar dövlət vəsaiti hesabına inşa edilmiş yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzilləri üzərində hüquqların rəsmiləşdirilməsi, habelə onların yerləşdiyi torpaq sahələri ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

## Cozep Borrell: "Ermənistan və Azərbaycan arasında mühüm irəliləyiş əldə olunub"

Davamlı sülh, sabit və təhlükəsiz Cənubi Qafqaz istiqamətində çalışmaq üçün Ermənistan və Azərbaycan arasında mühüm səylər və irəliləyiş əldə olunub.



AZƏRTAC xəbər verir ki, bunu Avropa İttifaqının (Aİ) Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell rəsmi tviter hesabında bildirib. "Mövcud geosiyasi kontekstdə münaqişələrin diplomatik həll yollarını tapmaq həmişəkindən daha vacibdir", - deyə Cozep Borrell qeyd edib.

## Peskov: "Kreml Brüsseldə əldə edilən nəticəni alqışlayır"

*XƏBƏR+AKTUAL*

Kreml Azərbaycan və Ermənistan hakimiyyətlərinin sülh prosesini başlatmaq qərarlarını pozitiv qiymətləndirir. SİA xəbər verir ki, bu haqda TASS Rusiya Federasiyası prezidentinin mətbuat katibi Dmitri Peskovun cümə axşamı jurnalistlərə verdiyi açıqlamasında Brüssel görüşündə əldə edilən nəticələrə münasibətini şərh edərkən deyib.



"Pozitiv", deyə o müvafiq sualı cavablandırarkən bildirib. Peskov əlavə edib ki, prosesin kifayət qədər davamlı olması aydındır, lakin belə bir sənədin qəbulu istiqamətindəki irəliləmə özü-özlüyündə pozitiv faktdır və biz onu alqışlayırıq.

*Rövşən*

# Dünyanın aparıcı KİV-ləri
# Prezident İlham Əliyevin
# Brüsselə səfərini geniş işıqlandırıb

**Misirin "əl-Diplomasi", "Nile1" və "Yeni dünya xəbərləri" portallarında "Brüssel görüşü Azərbaycanın daha bir diplomatik qələbəsidir" sərlövhəli məqalə yayımlanıb. Şərqşünas Həşim Məmmədovun müəllifi olduğu yazıda misirli oxuculara Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə işgüzar səfəri zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla keçirdiyi görüş haqqında məlumat verilib.**

Məqalədə Şarl Mişelin görüşün yekunlarına dair bəyanatında diqqətçəkən məqamlar olduğu qeyd edilib. Belə ki, Avropa İttifaqı Şurasının Prezidenti bir dəfə də olsun "Qarabağ münaqişəsi" kəlməsini işlətməyib. Bu, Azərbaycan və Ermənistanın ölkələrin ərazi bütövlüyü çərçivəsində sülh müqaviləsinin imzalanmasına yaxın olduqlarını göstərir.

Yazıda Brüssel görüşündə aprelin sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi, bu komissiyanın mandatına Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası, sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi barədə razılıq əldə olunduğu diqqətə çatdırılıb.

Yaponiyanın "ajmedia.jp" saytı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü və onun nəticələri barədə geniş məqalələr yayıb.

Saytda yer alan məlumatlarda Azərbaycan Prezidentinin keçirdiyi görüşlər və həmin görüşlər barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin mətbuat nümayəndələrinə açıqlaması əksini tapıb. Məqalələrdə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında görüşün nəticəsi olaraq bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılığın əldə olunduğu vurğulanıb.

Bununla yanaşı, məlumatlarda tərəflərin qəbul etdiyi Soçi bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi, komissiyanın mandatına Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası, sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi əksini tapıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsselə işgüzar səfəri zamanı Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşünü İran mətbuatı diqqətdə saxlayıb. AZƏRTAC xəbər verir ki, İranın "Fars news", "Tasnim news", "Aftab news", "İlna news", "Farda news", "Mehr news", "Euro news" saytının fars dilindəki bölməsi və başqa mətbuat orqanları Prezident İlham Əliyevin Aİ Şurasının sədri Ş.Mişel və Ermənistanın Baş naziri N.Paşinyanla apardığı danışıqlara geniş yer veriblər.

Materiallarda nəzərə çatdırılıb ki, görüşlərdə qarşılıqlı etimadın qurulması, işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi, sülh sazişinin hazırlanması prosesinin başlanması, münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının göstərilməsi məsələləri müzakirə olunub.

Xüsusilə qeyd olunub ki, Cənubi Qafqazda nəqliyyat infrastrukturunun bərpa olunması məsələsinin müzakirəsi region ölkələri üçün də böyük əhəmiyyət kəsb edir. Vurğulanıb ki, danışıqlar zamanı Aİ rəsmisi tərəflərə sülh yaratmaq prosesində dəstək olacağını bildirib.

Moldovanın nüfuzlu KİV-i Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşünü və onun nəticələrini geniş işıqlandırıb.

Belə ki, Moldovanın "Tribuna", "TV8" xəbər portalları və digər saytlarda yayımlanmış məqalələrdə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında görüşün nəticəsi olaraq bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılığın əldə edilməsi vurğulanıb.

Bundan başqa Soçi bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi, komissiyanın mandatına Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası, sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi qeyd olunub.

Eyni zamanda, görüşün nəticələri ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunan məsələlər də məqalədə yer alıb.

















# İLHAM ƏLİYEV:

## "Biz güclü dövlət qurmuşuq, daha da güclü Azərbaycan qurmalıyıq və əminəm ki, quracağıq"

**Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər.**

Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,8 faiz səsini toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Xalqın iradəsini əks etdirən seçkilər cənab İlham Əliyevə olan inamı, etimadı nümayiş etdirir. Ona görə də, 15 oktyabr 2003, 15 oktyabr 2008, 9 oktyabr 2013 və 11 aprel 2018-ci il tarixlərində keçirilən prezident seçkilərində xalqımız ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, sabitliyə, əmin-amanlığa, tərəqqiyə, quruculuğa və sözünün üstündə həmişə dayanmış şəxsiyyətə, ən əsas, sözü ilə əməlinin üst-üstə düşdüyü qüdrətli liderə səs verdi. Əlbəttə, Prezident İlham Əliyevin 18 illik prezidentliyinin əsas məqsədi xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi bütün gücü ilə möhkəmləndirməkdir.

### SÖZÜ İMZASI QƏDƏR KEÇƏRLİ, HƏM DƏ DƏYƏRLİDİR

Bəli, Prezident İlham Əliyevin son 18 il prezidentlik fəaliyyəti və əldə olunan nailiyyətlər bu faktorun təsdiqidir. Azərbaycan Prezidenti çıxışlarında da dəfələrlə qeyd edir ki, "Bizim sözümüz imzamız qədər keçərlidir". Bəli, keçərli olduğu qədər həm də dəyərlidir. Çünki Prezident İlham Əliyev imzası Azərbaycan xalqının parlaq gələcəyinin, Azərbaycan dövlətinin yüksəlişinin ifadəsidir. Nəyi, nə zaman və necə etməyi hamıdan yaxşı bilən qətiyyətli və qüdrətli Lideri olan Azərbaycanı heç kim və heç nə dayandıra, öz haqlı yolundan döndərə bilməz. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Bizi heç kim, h eç nə və heç bir qüvvə dayandıra bilməz!".

Bu, bir həqiqətdir ki, ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı



və təminatçısı da Prezident İlham Əliyevdir. Sözü ilə əməli hər zaman üst-üstə düşən Prezident İlham Əliyev sosial paketdən olan yeni islahatlar kursu ilə növbəti dəfə təsdiqlədi ki, o, hər bir Azərbaycan vətəndaşının Prezidentidir.

Prezident İlham Əliyev hər zaman olduğu kimi, Azərbaycan xalqına verdiyi vədləri sonuna qədər yerinə yetirməyə qadir, güclü bir Liderdir. Cənab İlham Əliyevin Respublika Prezidenti kimi fəaliyyətinin 2018-ci ilə qədərki dövründə kifayət qədər ciddi işlər görülmüş, qlobal layihələr reallaşdırılmaqla ölkənin iqtisadi müstəqilliyinə, resursların düzgün şaxələndirilməsi nəticəsində maliyyə sabitliyinə, ordu quruculuğu və müdafiə sənayesi sahəsində inqilabi dəyişikliklərə nail olunmuş, ciddi hərbi siyasi tərəfdaşlıqlar yaradılmış, habelə, əsas ümummilli problemimiz olan Qarabağ münaqişəsi üzrə ədalətli hüquqi bazanın formalaşdırılması istiqamətində həlledici regional və beynəlxalq hüquqi aktlar qəbul edilmişdir. 2018-ci il 11 aprel prezident seçkilərinin 4 illik qısa bir dövrə nəzər yetirdikdə görürük ki, bu müddət ərzində Azərbaycan dövlətçilik tarixində dərin izlər qoyacaq mühüm işlər görülüb və bütün bunların özülü 2003-cü ildən başlayaraq qoyulub və ötən 18 ildə ən böyük hədəfi güclü, qüdrətli və bütöv Azərbaycan qurmaq idi. Belə ki, növbəti dəfə xalqdan etimad mandatı alan Prezident İlham Əliyevin rəhbərliyi altında son üç ildə Azərbaycan öz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil oldu. Seçkilərdə qələbə qazandıqdan sonra Prezident cənab İlham Əliyevin imzaladığı ilk Fərman - 2018-ci il 19 aprel tarixli Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı oldu. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Hər iki Fərman həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin cənab İlham Əliyevin növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. Bu fərmanlar həm də əhalidə milli vətənpərvərlik duyğularının gücləndirilməsinə hesablanmışdı. Çünki Azərbaycan vətəndaşları uzun illərdir Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarının azad olunması üçün Ali Baş Komandandan əmr gözləyirdi. Prezident İlham Əliyev isə gözlənilən müharibədə canından keçəcək Vətən övladlarının gözünün arxada qalmaması üçün dövlətin istənilən yükün altına girəcəyinin mesajını verirdi

### AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ BƏRPA EDƏN LİDER

Ötən 4 ilin ən böyük hadisəsi isə, əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpası oldu. 2018-ci il aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Aprel qələbəsinə toxunan Prezident İlham Əliyev deyirdi: "Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik".

Bəli, tarix həqiqətlərə və hüquqi bazaya söykənərək Dağlıq Qarabağın əzəli və qədim Azərbaycan torpağı olduğunu təkzibedilməz faktlarla sübuta yetirdi. Azərbaycan Prezidenti tərəfindən beynəlxalq aləmdə bu qədər ifşa olunmasına və rəzil vəziyyətə salınmasına baxmayaraq, Ermənistanın baş naziri siyasi hoqqabazlıqlardan əl çəkmirdi. Onun gah danışıqları sıfırdan başlamaq, gah rəsmi Bakını Dağlıq Qarabağ separatçıları ilə birbaşa danışıqlara çağırması təklifləri, Şuşanın Cıdır düzündə sərxoş vəziyyətdə yallı getmək və "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" bəyanatı kimi təxribatçı hərəkətləri danışıqların müharibə ilə əvəzlənəcəyinə şübhə yeri qoymurdu. Bütün bu məsuliyyətsiz davranışların kulminasiya nöqtəsi isə 2020-ci ilin 12 iyulunda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində törədilən təxribat oldu. Bu təxribat nəticəsində general-mayor Polad Həşimov başda olmaqla Azərbaycan Silahlı Qüvvələrinin 12 hərbçisi şəhid oldu. İyulun 14-də Şəhidlər Xiyabanına axışan yüz minlərlə insan "Ali Baş Komandan, silah ver bizə" şüarları ilə Azərbaycan xalqının müharibə istəyini ortaya qoydu. O günün gəlişi isə özünü çox gözlətmədi.

Xalqdan lazımi dəstəyi alan Prezident İlham Əliyev 27 sentyabr 2020-ci ildə Ermənistan ordusunun törətdiyi növbəti hərbi təxribata cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinə cəbhənin bütün istiqamətləri üzrə hücum əmri verdi. Bu, 44 gün davam edəcək Vətən Müharibəsi idi. Cənab İlham Əliyev 44 gün ərzində Prezident, Ali Baş Komandan, Sərkərdə və Diplomat kimi bütün bacarıqlarını ortaya qoydu. Silahlı Qüvvələrin döyüş tapşırıqlarını hər gün yeniləyən Prezident eyni zamanda informasiya cəbhəsində də savaşır, dünyanın müxtəlif telekanallarına müsahibə verir, Azərbaycanın haqq davası ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırırdı. 2018-ci ilin 11 aprel seçkilərində xalqın böyük dəstəyi ilə Azərbaycana rəhbərlik kimi məsuliyyətli missiyanı növbəti mərhələdə də üzərinə götürmüş cənab İlham Əliyev ona göstərilən etimadı fəaliyyəti ilə hər zaman doğruldur, Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün əzmlə, qətiyyətlə çalışır. Təkcə 44 günlük Vətən müharibəsində qazanılan böyük Qələbəni, Zəfər yürüşünü, torpaqlarımızın işğaldan azad olunmasını demək kifayətdir ki, xalqın öz seçimində nə qədər haqlı olub. Belə ki, işğal altında olan Laçın, Kəlbəcər və Ağdam rayonları bir güllə atılmadan azad edilməsi tarixi faktordur. Bir sözlə, bu gün Prezident İlham Əliyev 11 aprel seçkilərində qazandığı prezidentliyinin dördüncü ildönümünü Qalib Sərkərdə kimi qarşılayır. Hələ qarşıda görüləcək çox işlər var. Bu gün dəmir yumruğun gücü ilə Qarabağ Azərbaycandır - dirçəliş yolundadır. İlk öncə bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi əsas məsələlər sırasındadır. Doğrudur, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. Bu, həm on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir.

Bir sözlə, Prezident İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti dövründə əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Azərbaycan Prezidenti bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Həyata keçirilən bütün proseslər təsdiq edir ki, biz 44 gün ərzində möhtəşəm qələbə qazandığımız kimi, Zəfərin davamı olan quruculuq işlərini də uğurla başa çatdıracağıq. İlk növbədə azad olunmuş kənd və şəhərlərimiz bərpa olunmalı, məcburi köçkünlər ata-baba yurdlarına qayıtmalıdır.

Beləliklə də, bu gün böyük qürur hissi ilə deyə bilərik ki, ölkə başçımızın qətiyyəti, iradəsi, prinsipial mövqeyi, dərin siyasi bilik və bacarıqları sayəsində qarşıya qoyulan bütün hədəflər qət olunub. Sadəcə, 2018-ci ildən bu günə qədər ötən dövrü analiz etmək onu deməyə əsas verir ki, cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz Lideridir, Qalib Sərkərdəsidir! Və Qarabağı işğaldan azad etməyi bacarmış Ali Baş Komandan kimi bu işlərin öhdəsindən də gələcəyinə heç kim şübhə etmir. Çünki Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***

# 11 aprel 2018-ci il - Zəfərə aparan prezident seçkisi

Prezident seçkiləri hər bir xalqın, dövlətin həyatında olduqca mühüm tarixi, siyasi-hüquqi hadisədir. Xalq öz prezidentini seçməklə həm də növbəti dövr üçün öz iqtisadi-sosial gücünün təminatçısını, beynəlxalq siyasətdə dövlətin maraqlarını qoruyan şəxsi, sözün əsl mənasında öz liderini seçir. 4 il bundan əvvəl, 2018-ci il aprelin 11-də baş tutan prezident seçkilərində iştirak edən xalqımız bu məsuliyyəti olduqca gözəl dərk edirdi. Həmin gün xalqımız şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə 86.02 faiz səs çoxluğu ilə cənab Əliyev İlham Heydər oğlunu növbəti dəfə Azərbaycanın prezidenti seçmişdir. Cənab İlham Əliyevin bu prezidentliyi dövründə baş verən sonrakı hadisələr xalqımızın seçiminin nə qədər düzgün siyasi və tarixi bir qərar olduğunu göstərdi. Çünki məhz 11 aprel 2018-ci il tarixli prezident seçkiləri müstəqil Azərbaycanın tarixinə ən şanlı səhifənin yazılmasının səbəbkarı olan, 30 illik işğala son qoyan, Qarabağ həsrətinə, Şuşa həsrətinə son qoyan bir prezidentin seçilmiş olduğu seçkilər kimi dövlətimizin tarixinə əbədi həkk olundu. Bundan sonra da xalqımız hər zaman 11 apreli erməni işğalçılarını torpaqlarımızdan çıxaran, ərazi bütövlüyümüzü bərpa edən, "Dəmir yumruğ"u yaradan Prezidentin - Müzəffər Ali Baş Komandanın seçildiyi tarix kimi xatırlayacaq.



*Ziyafət Əsgərov*
*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri*

Əlbəttə xalqın seçimini Prezident İlham Əliyevin xeyrinə müəyyən etmiş amillər çox idi. Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz böyük inkişaf yolu keçmiş, Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmlənmiş, dövlətimiz güclənmiş, onun qüdrəti və iqtisadiyyatı daha da artmışdır. Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi xeyli dərəcədə güclənmişdi, insan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioritetləri olmuşdur. Bundan əvvəlki prezidentliyi dövründə cənab Prezident tərəfindən daim Azərbaycan xalqının milli maraqlarını düşünərək atılan addımlar, Ulu Öndərin siyasi kursunun uğurla davam etdirilməsi, "bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" ideologiyası zatən Azərbaycan xalqının İlham Əliyevə dərin sevgisini qazandırmışdır. 44 günlük Vətən Müharibəsi dövründə onun əsl sərkərdə, lider kimi hərbi komandanlıqdan tutmuş informasiya müharibəsinə kimi bütün cəbhələrdə ən öndə vuruşması, "Mən xalqımdan heç nəyi gizlətmirəm", "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" mesajları verərək xalqda ruh yüksəkliyi, özünə güvən formalaşdırması, müharibə dövründə qarşılaşdığı təzyiqlər, bu təzyiqlərə təmkinlə, lakin kəskin və cəsarətli cavablar verməsi, sonda "Dəmir yumruq"la düşməni məhv etməsi, onu kapitulyasiya aktı imzalmağa məcbur etməsi və nəticədə əldə olunan Qarabağ Zəfəri Azərbaycanda xalq-prezident birliyini ən yüksək zirvəyə çıxarmışdır.

Şübhəsiz ki, Qarabağ Zəfəri təsadüfən qazanılmamışdır. Əslində elə ilk dəfə prezident seçildiyi dövrdən başlayaraq, 2003-2018-ci illər ərzində Prezident İlham Əliyevin atdığı addımların arxasında dayanan əsas məsələ, əsas məqsəd həmişə torpaqlarımızın işğaldan azad edilməsi olmuşdur. Cənab Prezident bunun üçün güclü dövlət, güclü iqtisadiyyat, ordu, beynəlxalq nüfuz lazım olduğunu çox yaxşı bilirdi. 2003-2018-ci illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar, BMT, AŞ, ATƏT, NATO və bütün digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından edilən qətiyyətli çıxışlar, dost və qardaş ölkələrin düzgün seçilməsi, həmin ölkələrlə qurulan uğurlu əməkdaşlıq Zəfərin bünövrəsini qoymuşdur. Bu dövr Azərbaycan Ordusunun sürətli inkişaf dövrü olmuşdur. Elə bu yaxınlarda il dönümünü qeyd etdiyimiz 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, qələbə əzmini göstərmişdi və həmin vaxt artıq Qarabağ Zəfərimizin yaxınlaşdığını hiss etmişdik.

2003-2018-ci illəri həm də dövlətimiz üçün iqtisadi yüksəliş dövrü olmuşdur. "Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər" - fikrini səsləndirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bu dövr ərzində ölkədə ümumi daxili məhsul, büdcə gəlirləri, ölkənin strateji valyuta ehtiyatları, ixracın həcmi, xarici ticarət dövriyyəsi, minimum əmək haqqı artmış, yeni iş yerləri açılmış, əhalinin məşğulluq səviyyəsi artmışdır. 2003-2018-ci illərdə iqtisadiyyatın neft-qaz sektoru əsaslı şəkildə inkişaf etmişdi, həmçinin qeyri-neft sektoruna xüsusi diqqət göstərilmiş, azad sahibkarlığın inkişafı üçün şərait yaradılmış, sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Əslində 2003-2018-ci illərin uğurlarının hamısını sadalamaq mümkün deyil, qısaca olaraq yol və nəqliyyat infrastrukturunun sürətlə inkişafını, su təchizatı məsələlərinin öz həllini tapmasını, elektrik enerjisi ixracını, kənd təsərrüfatının inkişafını, mədəniyyət və idman sahəsində böyük uğurları vurğulaya bilərik. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdi, ona görə də xalq inkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcəyə səs vermişdir. 2018-ci il seçkiləri zamanı seçicilərin mütləq əksəriyyətinin Prezident İlham Əliyevə səs verməsi, həm də xalqın bütün dağıdıcı ünsürlərə, xain qüvvələrə yox deməyinin təzahürü idi.

Müasir politologiya elmində, xüsusilə son zamanlarda belə bir fikir güclənməyə başlamışdır ki, liderlərin şəxsi keyfiyyətləri onların siyasi mövqeyi, partiya mənsubiyyəti, seçdiyi siyasi kurs qədər vacibdir, hətta şəxsi keyfiyyət amili daha da əhəmiyyətlidir. Çünki müasir dövrdə sabit olmayan, sürətlə və ya anidən dəyişən ictimai-siyasi hadisələr fonunda məhz liderin bu dəyişikliklərə necə cavab verməsi dövlətin sonrakı taleyini həll edə bilər. 2019-cu ildə dünyanı bürüyən koronavirus pandemiyası həqiqətən də anidən dəyişən ictimai-siyasi hadisələr zamanı liderin şəxsi keyfiyyətlərinin, savadistedad, bilik və bacarıqlarının, analitik düşüncə qabiliyyətinin nə qədər əhəmiyyətli olduğunu sübut etmiş oldu. Hətta dünyanın ən inkişaf etmiş ölkələrinin də səhiyyə sistemlərini, iqtisadiyyatlarını böhrana məruz qoymuş pandemiya zamanı Azərbaycanda cənab Prezidentin rəhbərliyi altında pandemiya ilə mübarizədə düzgün strategiyanın seçilməsi, vaxtında görülən qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlər, pandemiyadan ziyan çəkmiş insanların sosial müdafiəsinin təmin edilməsi xalqımızın bu bəladan ən az itki ilə çıxması üçün şərait yaradıb. Azərbaycan Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradan ilk ölkələrdən biri olmuşdu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir illik əməkhaqlarını fonda ianə etmişdi.

Pandemiya ilə mübarizədə cənab Prezidentin sərgilədiyi siyasət onun həm də yüksək şəxsi keyfiyyətləri ilə fərqlənən lider kimi ümumbəşəri dəyərlərin daşıyıcısı olduğunu bütün dünyaya göstərdi. Mübarizənin ilk günlərindən Cənab Prezident bu işdə həmrəyliyin vacib olmasını qeyd etmiş, peyvəndlərin inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında ədalətsiz və qeyri-bərabər bölüşdürülməsinə qarşı çıxmış, peyvəndin bütün ölkələrin xalqlarına çatmalı olduğunu bildirmişdi. Qoşulmama Hərəkatının sədri qismində cənab Prezidentin təşəbbüsü ilə 2020-ci il dekabrın 3-4-də BMT Baş Assambleyasında COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiya keçirilmişdir. Bütün bunlar həm dövlətin xarici siyasətinə birbaşa təsir edən ən mühüm amil də elə onun rəhbərinin beynəlxalq nüfuzudur. Yalnız cənab İlham Əliyev kimi belə bir beynəlxalq nüfuza, yüksək şəxsi keyfiyyətlərə, qəti siyasi iradəyə, xalq və vətən sevgisinə sahib bir lider Cənubi Qafqazda yeni siyasi reallıqlar yarada bilərdi ki, bu gün bütün dünya dövlətləri bu reallıqları qəbul edir. Cənab prezidentin özünün də söylədiyi kimi, Azərbaycan tarixinin ən qüdrətli, güvənli, istiqrarlı dövrünü yaşayır. Misilsiz xidmətlərinə görə cənab prezidentə minnətdarlıq edir, ona möhkəm can sağlığı, ali dövlət fəaliyyətində yeni-yeni uğurlar arzulayıram!.

# "Azərbaycan Brüsseldə istədiyini əldə etdi"

"Brüssel görüşündə əldə edilən nəticələr Azərbaycan strateji diplomatiyasının növbəti uğuru, eyni zamanda post-müharibə reallıqlarının dünyaya qəbul etdirilməsi hadisəsidir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər sistemi həddindən artıq mühafizəkar və eqoistdir. Yaradılan yeni reallıq hər nə qədər beynəlxalq hüquqa uyğun olsa belə onu qəbul etdirmək çox çətin olur". Bu sözləri SİA-ya açıqlamasında deputat Hikmət Babaoğlu deyib.



Onun sözlərinə görə, bu isə beynəlxalq münasibətlər sistemini təyin edən güc mərkəzlərinin paralel nizam yanaşması ilə əlaqədardır: "Bu paralel nizama əksər hallarda ikili standartlar siyasəti də deyirik. Yəni əsas aktorların maraqlarına uyğun olan problemlər beynəlxalq hüquqa uyğun olmasa belə o problemlərin mövcud olmasına və hətta davam etməsinə qlobal güc mərkəzləri dəstək olurlar. Qarabağla bağlı vəziyyət də belə idi. Ancaq Azərbaycan bu məsələni həll etməklə dünyanın güc mərkəzlərini fakt qarşısında qoydu və imperialist mərkəzlərin bu reallığı qəbul etməkdən başqa çarələri qalmadı. Brüsseldə keçirilən görüşdən sonra Ş.Mişelin mətbuat üçün bəyanatında əksini tapan məsələlər də post-müharibə mərhələsi üçün Azərbaycanın irəli sürdüyü beş baza prinsipinə söykənir. Bu baza prinsipləri beynəlxalq hüquqa və Azərbaycanın maraqlarına tamamilə uyğundur. Qeyd etmək lazımdır ki, hələ 2021-ci ilin dekabr ayının 14 də keçirilən üçtərəfli görüşdə əslində məhz bu prinsiplər əsasında mümkün gündəm müəyyənləşdirilmişdi. Yəni artıq post-müharibə mərhələsində qalıcı sülh üçün yeni danışıqlar platforması kimi qəbul edə biləcəyimiz Brüssel-Bakı-İrəvan xəttinin əsasları həmin vaxt qoyulmuşdu.

Hazırda isə bu əsaslarda sülh danışıqlarını irəli götürmək üçün mexanizmlərin yaradılması baş verir. Burada önə çıxan əsas məsələlərdən biri xarici işlər nazirlərinin birbaşa əməkdaşlıq etməsinin nəzərdə tutulmasıdır ki, bu nəticə əldə etmək üçün olduqca çevik və səmərəli formadır. İkincisi aprel ayının sonunadək sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı uyğun komissiyanın yaradılmasıdır. Eyni zamnda hazırda sərhədlərdə mövcud olan reallığın toxunulmazlığıdır. Bu isə o deməkdir ki, erməni tərəfi Qaragöl və Kəlbəcər istiqamətində əvvəlki iddialarınından geri çəkilib ya da onu qəbul etdirə bilməyiblər. Başqa mühüm bir məsələ isə bəyanatda və danışıqlarda ATƏT və onun Minsk Qrupunun ümumiyyətlə xatırlanmaması onun əvəzinə hər iki tərəfin etimad etdiyi Avropa İttifaqının danışıqları himayə etməsi gerçəkliyidir ki, bu da özlüyündə tamamilə yeni və səmərəli bir format yaradır. Hər hansı status əsla xatırladılmır tam əksinə regionda yaşayan bütün insanların rifahı naminə sülhə ehtiyac olduğu vurğulanır.

Nəhayət kommunikasiyaların o cümlədən avtomobil nəqliyyatı kommunikasiyyasının açılmasının zəruruliyi qeyd edilir. Yəni bəyannamədə alqışlanılan dəmir yolu xətti ilə bərabər avtomobil yolunun açılması zərurəti də öz əksini tapır. Əgər minaların təmizlənməsi, itkindüşən insanların taleyinə aydınlıq gətirilməsi kimi humanitar paketə daxil olan məsələləri də nəzərə alsaq deyə bilərik ki, Azərbaycan Brüsseldə istədiyini əldə etdi. Bu isə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə şəxsi zəmində olan qarşılıqlı etimada söykənən münasibətləri və Aİ ilə Azərbaycan arasında gələcək tərəfdaşlıq münasibətləri kontektində baş tutdu".

***Arzu Qurbanzadə***

# "Böyük Qayıdışla bağlı intensiv işlər görülür"




"Böyük Qayıdışın tezləşdirilməsi və bütövlükdə böyük qayıdışa başlanılması prioritet məsələlərdəndir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, Zəngilan rayonunda ilk ağıllı kənd hazırdır və gözlənilir ki, yaxın zamanlarda böyük qayıdışa başlanılacaq: "Bununla yanaşı digər bölgələrimizdə də Füzuli, Ağdam, Cəbrayıl və digər işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşma prosesinin sürətlənməsi ilə bağlı işlər gedir. Digər ağıllı kənd Füzuli rayonunun Dövlətyarlı kəndində olacaq. Bu istiqamət üzrə də bir sıra işlər gedir. Bu ərazilərimizdə əsas minadan təmizlənmə və bu prosesin sürətlənməsi istiqamətində də bir sıra işlər aparılır. Füzuli hava limanı artıq istifadəyə verilib, Zəngilan hava limanı intensif şəkildə qurulur. Bütövlükdə qayıdış tənzimlənməsi və qayıdışa bağlı işlər aparılır. Bütün bunlar böyük qayıdışın daha tez zamanda reallaşmasına imkan yaradacaq".

***Banuçiçək Hüseynli***

# “Ailə bizim üçün dövlətin əsasıdır”

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın SİA-ya verdiyi müsahibəni təqdim edirik:



***- Keçdiyimiz günlərdə cənab Prezident İlham Əliyev sizi 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etdi. Bu ordenin əhəmiyyətini necə dəyərləndirirsiz? Sizcə orden Milli Məclis yoxsa Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində gördüyünüz işlərə görə verilib?***

- Təbrik üçün təşəkkür edirəm. Mən hər şeydən əvvəl cənab Prezidentə, möhtərəm Ali Baş Komandana, Azərbaycanın və regionun lideri İlham Əliyevə öz dərin təşəkkürümü bildirirəm. Xüsusilə Novruz bayramı ərəfəsində təltif olunmaq mənim üçün iki qat əlamətdar oldu. Qeyd etməliyəm ki, yüksək mükafatın üzərimə qoyduğu məsuliyyəti dərindən hiss edirəm. Düşünürəm ki, cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən böyük siyasətin içərisində kiçik bir yer tutmaq, bu günümüz və gələcəyimiz naminə reallaşdırılan işdə iştirak etmək və bunun da müqabilində mükafatlandırılmaq bir insan üçün çox böyük bir işdir. Əslində mən bunu növbəti bir etimad kimi qəbul edirəm. Odur ki, bundan sonrakı fəaliyyətim zamanı da üzərimə düşən işləri layiqincə yerinə yetirməli, dövlətimiz, xalqımız və onun mənafeyi üçün hansı sahədə fəaliyyət göstərməyimdən asılı olmayaraq, cənab Prezidentin vurğuladığı kimi vəzifəni imtiyaz deyil, məsuliyyət olaraq qəbul etməliyəm.

Bu gün həmçinin Ümummilli Liderimiz Heydər Əliyevi böyük minnətdarla yad edir, xatirəsi qarşısında ehtiramla baş əyirəm. Yüz minlərlə fəal Azərbaycan qadınlarını yüksək dövlət vəzifələrində, ali seçkili orqanlarda, onun rəhbərliyində təmsil etmək mənə Heydər Əliyev şəxsiyyətinə olan inamım və onun həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində qismət olub. Hər zaman çalışmışam ki, şəxsimə göstərilən etimada və inama layiq olum.

Bir daha sizə təşəkkür edir, bundan sonra da Ümummilli Liderimizin müəyyən etdiyi,cənab Prezidentin cox böyük qətiyyətlə reallaşdırdığı Azərbaycana xidmətin Heydər Əliyev Yoluna sadiq qalacağımı bəyan edirəm.

***- Məsuliyyətdən danışdız. Sizcə Milli Məclisdə vitse-spiker olmaq daha məsuliyyətli və çətindir yoxsa Komitə sədri olmaq?***

- Bilirsiniz mənim üçün əsas məsələ harada olmağından asılı olmayaraq sənə tapşırılan işin öhdəsindən gəlməyə çalışmaqdır. Mən eyni bir dairədən 4 çağırış Milli Məclisin deputatı olmuşam. Bunun hətta bir çağırışı belə qismət olsaydı mən bunu özüm üçün böyük fəxarət və qürur hissi ilə hər zaman vurğulayacaqdım. Amma 4 çağırış Azərbaycan Parlamentinin üzvü seçilmək, 125 nəfərdən biri olmaq və nəhayət onun rəhbərliyində təmsil olunmaq, bu vasitə ilə də beynəlxalq miqyasda fəaliyyətə cəlb olunmaq, Azərbaycanı mötəbər beynəlxalq təşkilatda təmsil edən nümayəndə heyətinə rəhbərlik etmək, ən müxtəlif platformalarda ölkəmizi təmsil edərək, onun mənafeini müdafiə etmək imkanı qazanmaq həm məsuliyyət, həm də şərəfdir. Mən bu şərəfli illərimə görə, fəxr edirəm. Dövlət Komitəsindəki fəaliyyətim isə düşünürəm ki, mənim bu günə qədər olan fəaliyyətimin davamıdır. Və onların hər ikisi də mənim həyatımın cox vacib və maraqlı səhifələridir.

Onun bir hissəsi parlamentdə keçib, indi isə hökumətdə təmsil olunuram. Əgər parlamentdə biz qanun yaradıcılığı ilə məşğul idiksə, Azərbaycanı beynəlxalq aləmdə təmsil edirdiksə, seçicilərin problemləri ilə məşğul olurduqsa, indi burada konkret fəaliyyət sahəsi üzrə işlər görmək, problemlərin həllinə çalışmaq, vətəndaşların üzləşdikləri çətinlikləri aradan qaldırmaq üçün dövlət proqramları ilə müəyyən olunan öhdəlikləri yerinə yetirmək, digər qurumlarla birgə problemli mövzular üzrə inkişafa nail olmaq, müəyyən edilmiş səlahiyyətlər çərçivəsində öhdəliklərimizi yerinə yetirməliyik. Ona görə də bunları biri-birindən ayırmadan mənə tapşırılan vəzifələriin öhdəsindən gəlməyə çalışıram.

Amma bu o demək deyil ki, biz bütün hallarda vəzifə və öhdəliklərimizi tam şəkildə yerinə yetirə bilirik. Amma hər halda biz davamlı olaraq, bu sahədə olan çətinlikləri aradan qaldırmağa və uğurlu işlərə imza atmağa çalışırıq.

***- Bahar xanım, Komitənin işlərindən danışdız. Bəs hazırda Komitənin qarşısında duran ən böyük məqsəd və vəzifə nədir?***

- Yenə də bildirim ki, bu sahə prioritet bir sahədir. Azərbaycanın dövlət siyasətində özünəməxsus yeri var. Bilirsiniz ki, ailə məsələləri, qadın hüquqlarının inkişafı, xüsusilə çətin və həssas təbəqələrdən olan şəxslərlə bağlı işlərin görülməsi, eyni zamanda onların sosial və iqtisadi cəhətdən gücləndirilməsi, həmçinin mənəvi dəyərlər, uşaqların müdafiəsi, xüsusilə erkən yaşda inkişafı məsələləri bu gün Dövlət Komitəsinin fəaliyyətinin əsas prioritet istiqamətlərindəndir. Əlbəttə ki, dövlətin bu sahədəki siyasətini həyata kecirmək və digər qurumların fəaliyyətini əlaqələndirmək də bura daxildir. Söylədiyim kimi kifayət qədər də problemli sahədir və hər gün işə yenidən başlamağı tələb edir.

***- Qədimdən bəri Qərb xalqları ilə müqayisədə ailə Azərbaycan üçün ali dəyər olub. Bəs Dövlət Komitəsinin pəncərəsindən Azərbaycan ailəsi necə görünür?***

- Əgər bu məsələyə dəqiq yanaşsaq, hər bir xalq, millət üçün ailə və onun mənafeyi hər şeydən üstündür. Çünki insanın ən yaxın çevrəsi ailəsidir. İnsanın uşaqlıqdan bəri inkişaf etdiyi mühit də məhz ailədir. Çünki uşaq ailədə nə mənimsəyirsə, cəmiyyətdə də özünü o cür formalaşdırır. Düşünürəm ki, biz bu sahədə digər xalqlardan daha üstün və yaxud da daha fərqliyik. Təbii ki, hər bir xalqın özünəməxsus ənənələri və dəyərləri var. Eyni zamanda yanaşmalar da fərqlidir. Bu baxımdan bəli, bizim özünəməxsusluğumuz var. Bizim üçün ailə mərkəzi yerdə dayanır və bütün mənafeyimiz, maraqlarımız ailə ilə toqquşur və kəsişir. Odur ki, buradakı harmoniya, rahat mühit cəmiyyətdə də rahatlığı şərtləndirir. Bu baxımdan biz ilk növbədə ailəyə bağlıyıq. Əlbəttə ki, cəmiyyətin əsas nüvəsinin məhz ailə olduğunu heç kim inkar edə bilməz. Odur ki, ailə ilə cəmiyyət arasında böyük bir bağlılıq var. Bu baxımdan biz hansı pəncərədən baxırıqsa, baxaq bu bizim üçün dəyişmir. Yəni ailə bizim üçün müqəddəsdir. Təbii ki, müəyyən istisnalar da var. Zamanın gətirdiyi yeniliklər bu dəyərlərə yeni yanaşmaları da ortaya qoyur. Eyni zamanda ailə bizim üçün dövlətin əsasıdır. Həqiqi mənada ailə hər birimizin qalasıdır.

***- Ailə dəyərlərini vurğulayarkən, müasirlikdən danışdız. Nəzərə alsaq ki, 21-ci əsrdə yaşayırıq və texnologiyalar yetərli qədər inkişaf edib. Lakin hazırda bəzi ailələrdə kişilər xanımlara sosial şəbəkələri qadağan edirlər. Bunun əxlaqi dəyərlərə zidd olduğunu düşünürlər. Bu məsələni siz necə dəyərləndirirsiniz?***

- Mən düşünmürəm ki, bu yalnız bizdə belədir. Başqa ölkələrdə də bununla əlaqədar hadisələrin baş verdiyinin şahidi oluruq. Azərbaycanda da bu hadisələr istisna deyil. Hər kəsin inkişafın yeni təzahürlərinə münasibəti fərqli ola bilər. Bu da fərqli qaydada özünü büruzə verə bilər. Amma düşünmürəm ki, bu kütləvi xarakter daşıyır. Çünki hazırda hər kəs sosial şəbəkələrin zərərləri ilə yanaşı, cəmiyyətə faydalı tərəflərindən də yararlana bilirlər. Bu bir təfəkkür məsələsidir. Hətta sosial şəbəkə olmasaydı belə, bu cür məsələlər başqa konteksdən də baş verə bilərdi. Hansı ki, tarixən də bu belə olub. Bəzi halda bu bəhanə kimi, digər halda isə səbəb kimi çıxış edə bilər. Mən bunu ümumilikdə aparıcı bir hal kimi qəbul etmirəm. Hətta sizin söylədiyiniz hallarda təkcə kişilər deyil, xanımlar tərəfindən də oxşar yanaşmalar ola bilər.

***- Konstitusiyada insan hüquqları və azadlıqları təsbit olunub. Bəs Azərbaycanda insan hüquqları ilə bağlı əsas problem nədir?***

- Bilirsiz problemsiz cəmiyyət yoxdur. Cəmiyyətin bütün sahələrində inkişaf varsa, deməli problem də var. İnkişaf heç də həmişə problemləri birdəfəlik həll edə bilmir. Hüquqlar isə aydın və konkretdir. İstər konvensiyalarda müəyyən olunmuş, istərsə də bizim milli qanunvericiliyə daxil edilmiş hüquqlar qanunla qorunur, müdafiə olunur. Ona əlçatanlığı təmin etmək üçün müvafiq işlər görülür. Bu sahədə xüsusilə də son illərdə Azərbaycan böyük bir inkişaf yolu keçib. Əlbəttə ki, problemlər də var. İlk öncə bu hüquqların dərk olunması məsələsi ilə bağlıdır. Fərdlərin bunu qəbul edərək yerinə yetirməsi istiqamətində də müəyyən problemlər mövcuddur. Lakin bu birmənalıdır ki, hüquqların təminatçısı Azərbaycan dövlətidir və o bunun üçün lazım olan, bütün işləri görür.

Problemlər uzun illər bizdə Dağlıq Qarabağ adlandırılan indi artıq tarixin arxivinə göndərilən məsələ ilə bağlı idi ki, bu gün biz onu öz gücümüzlə həll etdik. Lakin bu o demək deyil ki, burada pozulmuş hüquqların hamısı bərpa olunub. Hazırda biz bu səbəbdən ev-eşiyindən didərgin düşən, yaxınlarını, doğmalarını itirən, uzun illər öz yurdundan kənarda yaşamağa məhkum olanların hüquqlarının təmin edilməsi istiqamətində işlər görürük.

O cümlədən, cəmiyyət həyatında ən müxtəlif sahələrdə təmsilçilik və iştirakçılıqla bağlı bərabərliyin pozulduğunu görə bilərik. Biz daha çox qadın hüquqları ilə məşğul olduğumuz üçün, onların həyatın bütün sahələrində təmsil olunması ilə bağlı üzləşdiyi problemlər haqqında danışa bilərik. Odur ki, bu problemlərin hüquq çərçivəsində öz həllini tapması istiqamətində işlər görürük. Amma qeyd etmək lazımdır ki, bu davamlı və bitməyən bir prosesdir. Lakin unutmaq olnaz ki, insanların hüquqları ilə yanaşı, vəzifə və öhdəliklərini də bilmələri və yerinə yetirmələri də olduqca önəmlidir.

***- Cəmiyyətin bütün sahələrində qadınların təmsil olunmasının vacibliyini vurğuladız. Bəs Bahar xanım ailəsində də vitse-spikerdir?***

- Bəli, mən nə vaxtsa müsahibələrimdən birində belə bir ifadə səsləndirmişəm. Belə baxdıqda hər bir xanım öz ailəsinin vitse-spikeridir demək olar. Bizdə bir qayda olaraq kişilər ailə başçısı kimi qəbul olunur. Xanımlar isə daha cox ailə məsələləri, uşaqların tərbiyəsi ilə məşğul olur. Düzdür, yaxşı olardı ki, bütün digər məsələlərdə də qadın da, kişi də eyni dərəcədə məsuliyyət daşısın. Amma nə qədər çalışsaq da uzun illər ərzində formalaşmış bu təbii bölgüləri tam aradan qaldıra bilmirik. Lakin qeyd etmək lazımdır ki, sürətli inkişaf və onun həyatımıza gətirdiyi dinamika bu sahəyə də öz təsirini göstərməkdədir.

***- Adətən vəzifədə olan şəxslər olduqca soyuqqanlı olurlar. Bəs siz də soyuqqanlısız? Bunun gündəlik həyatınızda mənfi və ya müsbət tərəfləri ilə qarşılaşırsınız?***

- Soyuqanlı olmaq o, demək deyil ki, ətrafda baş verən hadisələrə qarşı biganə və laqeydsən. Bəlkə də insanın məsuliyyət yükü burada daha çox rol oynayır. Onun şəxsi xarakteri, vərdişləri, istəkləri burada artıq arxa plana keçməlidir. Ümumi maraq, ümumi iş tələb edir ki, bəzən lazımi qədər soyuqqanlı olmaq üçün öz emosiyalarını idarə edəsən. Əks halda müəyyən problemlər yarana bilər. Hər bir halda soyuqqanlı olmaq işdə daha məsuliyyətli olmağımızın təminatıdır.

***- Aprelin 11-də cənab Prezident İlham Əliyevin 2018-ci ildə Prezident seçilməsindən 4 il ötür. Bu illər ərzində Komitə hansı işlər görmüş və hansı yeni lahiyələrə imza atmışdır?***

- Bilirsiniz, məncə bu illəri yalnız Komitənin fəaliyyəti ilə əlaqədar dəyərləndirmək düzgün olmazdı. Bu dövr Azərbaycan dövlətinin, xalqının, bütövlükdə regionun, hətta dünyanın həyatını dəyişdirən illər oldu. Bu həm Azərbaycanın özündə, həm də dünyada gedən proseslərə bağlıdır. Bu 4 il ərzində ölkəmizdə və regionda baş verən dəyişikliklərin bir qismini Azərbaycan öz gücü ilə əldə etdi. Cənab Prezident o vaxt erkən seçkilərə gedərkən bir çoxumuz hələ təsəvvür etmirdik ki, bu hansı hədəflərə yönəlmiş bir addımdır. O tarixdən keçən illər də göstərdi ki, bu qərar inkişafa mane olan bir sıra problemləri aradan qaldırmaq, ən əsası Qarabağ məsələsinin həllinə nail olmaq üçün cənab Prezidentin çoxdan hazırladığı, nəyi, nə vaxt, necə edəcəyini müəyyənləşdirdiyi proqramın icrası üçün idi. Bu Prezident seçkiləri bitdikdən dərhal sonra atılan ilk addımlardan da bəlli oldu. Ölkədə ciddi struktur və kadr islahatları aparıldı. Parlament erkən seçkilər nəticəsində yenidən formalaşdı, eyni zamanda bir çox sahələrdə də islahatlar aparıldı. Bütövlükdə Azərbaycanın bütün siyasi və ictimai həyatı müsbət mənada yeniləndi.

Ölkədə yeni qüvvələr nisbəti, daha doğrusu yeni siyasi konfiqurasiya yarandı. Ölkədə bütün siyasi partiyalar kiçik istisnalarla dövlətin, ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında birləşərək milli gücümüzün yenidən formalaşmasına öz töhfəsini verdi.

***Səbinə Hüseynli***



# Milyonlarla dövlət vəsaiti talanıb - BAKI-QUBA YOLUNDA

**“Bakı-Quba yolu 1, 2 ilin problemi deyil. Bu problem uzun illərdir davam edir və həllini tapmır. Bakı-Quba yolu sovet dövründən qalma yol idi, çökürdü, dağılırdı”. Bu fikirləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət bildirib.**

Onun sözlərinə görə, bu yolla bağlı böyük bir layihə işlənildi: ”O layihə çərçivəsində yolun bir qismi Bakıdan Qubaya doğru çəkildi və deyərdim ki, keyfiyyətli idi. Dəqiq bilmirəm, amma deyilənə görə, o



yolu almanlar çəkib. Rahat gedilən bir hissədir. Ara-sıra cari təmirə ehtiyac duyulur. Lakin geri qayıdarkən o yolun çəkilişi xaricilərdən alınıb, bizimkilərə verilib. Təbii ki, müəyyən yeyintilərə yol verilib. Milyonlarla, bəlkə də yüz milyonlarla dövlət vəsaiti talanıb. Ona görə də bu yol əmələ gəlmir. İndiki şəraitdə isə yolun bərpa edilməsi üçün planlar var, sadəcə alternativ yollar çəkilir. Aternativ yol başa çatmadığına görə, bu yoldan istifadə edilir. Alternativ yol başa çatdıqdan sonra əsas yolda kapital təmirlər olunacaq. Çünki yolun bir çox hissələri sökülüb sıfırdan tikilməlidir. Alternativ yolun da çəkilməsi uzun illər aparır. Buna görə insanlar problem yaşayırlar. Düşünürəm ki, başqa bir təklif irəli sürülməlidir. Betonun üstündən asfalt yamaq vururlar. Bir dəfə yağış yağan kimi yamaq darmadağın olur. Niyə? Çünki düzgün işləmirlər. Bu yanaşmanın özü doğru deyil. Cari təmiri eləyəndə belə vicdanla, keyfiyyətlə etmək lazımdır. Yoxsa o yoldakı çuxurlar maşını dağıtmaqla yanaşı, insanların əsəblərini də dağıdırlar. O yoldan keçənlər yolu çəkən şəxslərin ”əcdadını yad edirlər”. Niyə söydürürsünüz özünüzü? Niyə dövlət vəsaitini oğurlayırsınız? Niyə bu qədər vicdansızlıq edirsiniz? Dövlətin pulunu ”basıb yeyiblər”. Ona görə yol bu vəziyyətdədir. Çıxış yolu ya Bakı-Rusiya alternativ yolunun çəkilişini sürətləndirməkdir, ya da bu yolun təmiri hissə-hissə həyata keçirilməlidir. Nə vaxta qədər yamaq vurmaq olar. Yağış yağır yolu məhv edir, yağışdan sonra yenidən yamaq vurulur”.

Mövzu ilə bağlı iqtisadçı Xalid Kərimli bildirib ki, Azərbaycanda yolların keyfiyyətsiz tikilməsinin bir sıra əsas səbəbləri vardır.

Onun sözlərinə görə, xüsusən də yükdaşıma əhəmiyyətli magistral yolların, ölkənin şimalı və cənubu, həmçinin səhrədlərarası məntəqələri birləşdirən yolların sürətlə sıradan çıxmasının ümumiləşdirilmiş bəzi səbəbləri mövcuddur: ”Bunlardan biri yol tikintisi zamanı baş verən qüsurlardı. Yol tikintisinə kifayət qədər pul ayrılsa da pullar təyinatına görə istifadə olunmur. İşlərin təşkilinə, keyfiyyətlə icrasına, istifadə olunan meterialların keyfiyyətinə düzgün fikir verilmir. Materialların keyfiyyətinə nəzarət zəif təşkil edilir. Bunun nəticəsində keyfiyyətsiz yolların dövlətin balansına qəbul edilməsinə gətirib çıxarır. Digər bir səbəb isə tikintidən sonra baş verən hadisələrlə əlaqədardır. Tikintidən sonra yükdaşıma maşınlarının normativlərə riayət etməməsi yolların sürətlə sıradan çıxmasına səbəb olur. Yəni yükdaşımalara nəzarət edən şəxslər nəyinsə müqabilində normadan artıq yükün daşınmasına icazə verdiyi üçün bu hallar yaşanır. Nəticə etibarilə də xalqın sərvəti olan yolların tez sıradan çıxmasına gətirib çıxarır.



Beton yollar çox bərbad vəziyyətə düşüb. Ölkə beton yol tikməkdə təcrübəli deyil. Buna baxmayaraq beton yollar çəkilmişdir. Ənənəvi asfalt yollarından fərqli olaraq beton yolların tikintisi daha baha-başa gəlir. Beton yollar baha-başa gəlsə də istismar xərcləri aşağıdır və ömrü ənənəvi yollardan daha uzundur. Ancaq müşahidə zamanı bunu deyə bilərik ki, mahiyyəti baha-başa gəlsə də keyfiyyəti asfalt yoldan belə aşağı səviyyədədir. Ənənəvi yolların ömrü daha uzun olub, nəinki beton yolların. Tikintidə baş verən qüsurlar, təcrübənin aşağı olması, nəzarətin pis təşkili bugünkü mövcud vəziyyətin əsas səbəbləridir”.

***Abutel İlhamqızı***

# “Bu, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün möhkəm zəmin yaradır”

**“Aprelin 6-da Belçikanın paytaxtı Brüsseldə baş tutmuş görüş Cənubi Qafqazda təhlükəsizliyin yaradılması istiqamətində sülh prosesinin başlanğıcı hesab oluna bilər”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasındakı görüşü şərh edərkən deyib. S.Mikayılovanın sözlərinə görə, görüşün yekun Bəyanatı bir daha göstərdi ki, Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif qəbul edilir və post-münaqişə dövründə danışıqlar əslində Azərbaycanın müəyyənləşdirdiyı gündəlik əsasında aparılır.**

”Sülh danışıqlarının Aİ müstəvisində aparılması Ermənistan və Azərbaycan arasında birbaşa təmasları təmin edən yeni danışıqlar mexanizmi və formatı yaradır. Azərbaycan Prezidenti İlham Əliyev və Aİ Şurasının Prezidenti Şarl Mişel tərəfindən əsası qoyulan Brüssel prosesi öz intensiv dinamikası ilə fərqlənir. Həm Azərbaycana, həm də Ermənistana münasibətdə kifayət qədər qərəzsiz və tərəfsiz mövqe sərgiləyən Aİ-yə hər iki ölkə etimad edir.



Məhz belə bir etimad mühitinin olması sülh prosesinin irəliyə aparılması və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üçün möhkəm zəmin yaradır”, - deyə S.Mikayılova vurğulayıb.

Deputat əlavə edib ki, 4 saat yarımdan artıq davam edən Brüssel görüşündə əldə olunan nəticə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanmasına dair dövlət başçılarının xarici işlər nazirlərinə təlimat vermələri ilə bağlı razılaşmadır. ”Bu əməli qərar görüşün nəticəsi olaraq Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilib. Digər vacib məqam isə Birgə Sərhəd Komissiyasının təşkil edilməsi ilə bağlı razılaşmadır. Birgə Sərhəd Komissiyasının mandatına Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi daxildir.

30 il davam edən qanlı münaqişənin humanitar fəsadlarının aradan qaldırılması sülh və etimadın təşviq olunması baxımından müstəsna əhəmiyyət daşıyır. Bu mənada Aİ-nin minalardan təmizləmə, itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərməsi ilə bağlı qərarlı olması məmnunluq doğurur”, - deyə deputat qeyd edib.

S.Mikayılovanın sözlərinə görə, Bəyanatda yer alan digər mühüm müddəa nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun bərpası və iqtisadi məşvərət forumu mexanizminin yaradılmasının təsbit olunmasıdır.

”Azərbaycanın ərazi bütövlüyünün bir daha xüsusi vurğulanması və delimitasiya prosesinə başlanması nəticə etibarilə sərhəddə gərginliyin aradan qaldırılmasına aparacaq. Diqqət çəkən vacib məsələ sənəddə ”Dağlıq Qarabağ” ifadəsi və ya keçmişin qalığı olan ATƏT Minsk qrupunun həmsədrlik institutuna istinadın olmamasıdır. Nə tərəflər, nə prosesdə iştirak edən beynəlxalq təşkilatlar, nə də ATƏT-in özü bu prosesdə onun yerini görür. ATƏT-in Minsk qrupu münaqişənin həllindəki qeyri-effektiv fəaliyyəti açıq şəkildə göstərdi ki, vasitəçilik missiyası bu münaqişələrin çözülməsində lazımsız mexanizmdir. Post-münaqişə dövründə bir neçə yersiz bəyanatı ilə yalnız qıcıq yaradan qrup bu gün münaqişə həll olunduqdan sonra danışıqlar masasından təbii olaraq yoxa çıxdı.

Brüssel görüşü Cənubi Qafqazda sülhyaratma prosesində irəliyə doğru mühüm addımdır, Aİ Prezidenti Şarl Mişelin sözləri ilə desək, ”Biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik”. Əldə olunmuş nəticələrin əməli işdə həyata keçirilməsi onun səmərəliliyini təsdiqi olacaq”, - deyə millət vəkili əlavə edib.

# Qərbin Rusiyaya qarşı sanksiyaları NİYƏ effektsizdir?




**Amerika Birləşmiş Ştatları Rusiyanın Sberbank və Alfa-Bankının aktivlərini dondurmaq qərarına gəlib. Bundan sonra Amerika şirkətləri və fiziki şəxslər bu bankların xidmətindən istifadə edə bilməyəcəklər. Bir istisna var, o da enerji ilə bağlı əməliyyatlardır. Böyük Britaniyada da oxşar addımlar atılıb, London Sberbank və MKB-yə məhdudiyyətlər tətbiq edib. Bundan əlavə, ABŞ Senatı Rusiya ilə münasibətləri kəsmək və neft idxalını qadağan edən qanun layihəsinə baxmağı planlaşdırır. Avropa İttifaqı hələ də öz tədbirlər kompleksini müzakirə edir.**

**Reuters** agentliyinin məlumatına görə, Avropa Rusiyadan kömür idxalına tam qadağa qoyulmasını avqustun ortalarına qədər təxirə salıb. Dünya mətbuatının yazdığına görə, nə



NATO-da, nə də Avropa İttifaqında Rusiyaya təzyiqlərin artırılması məsələsində konsensus yoxdur.

## Ukraynada müharibə "uzun və ağrılı" olacaq

**"The New York Times"** yazır ki, NATO üzvlərinin belə gözləntiləri var. Baltikyanı ölkələr və Polşa "Rusiyanı diz çökdürmək" üçün Moskva ilə münasibətlərin tamamilə kəsilməsini, həmçinin növbəti sanksiyaların tətbiqini tələb edir. Öz növbəsində Fransa, Almaniya və Türkiyə Rusiya prezidenti Vladimir Putin və Rusiya hakimiyyəti ilə əlaqələri davam etdirmək niyyətindədir. Onlar Moskvanın asanlıqla dayandırıla biləcəyinə şübhə edirlər.

Artıq Avropa Parlamentinin platformasında olan fikir ayrılıqları barədə dünya mətbuatı da yazır. Reuters xəbər verir ki, sanksiyaların təzyiq imkanları azalır və sərt məhdudiyyətlər Qərbi Avropanı da tənəzzülə aparır. Buna baxmayaraq, ABŞ Atlantik okeanı boyunca tərəfdaşlarını - Böyük Britaniya, Fransa, Belçika, İspaniya və digər Avropa dövlətlərini yeni addımlar atmağa təhrik edir.

ABŞ-ın dövlət katibi Antoni Blinken Belçikanın paytaxtı Brüssel şəhərində Avstraliyanın xarici işlər naziri Marise Payne, onun müşaviri Mikaela James, ABŞ Dövlət Departamentinin müşaviri Derek Chollet və ABŞ Dövlət Departamentinin sözçüsü Ned Price ilə görüşüb. Buça şəhərində öldürülən ukraynalıların dəhşətli görüntülərinə cavab olaraq Rusiyaya qarşı yeni sanksiyaların tətbiq olunmasının vacibliyi deyilərkən aydın olub ki, indi ən asan variantlar tükənib və növbəti addımlar üçün müttəfiqlər arasında kəskin fikir ayrılıqları yaranıb.

Avropa İttifaqı fevral ayında Ukraynaya müdaxiləsinə cavab olaraq Rusiyanın enerji sektorunu məhdudlaşdırmaq üçün ilk addımları təklif edib və Rusiya kömürünün idxalını




qadağan edib. Lakin Aİ ölkələri iqtisadi maraqları naminə Rusiya nefti və qazının idxalını məhdudlaşdırmağı ertələyiblər. Birləşmiş Ştatlar və G7 üzvləri Rusiyanın hökumət rəsmiləri və onların ailə üzvlərinin vəsaitlərini dondurmaq məqsədi ilə həmin pulların saxlandığı Sberbanka qarşı yeni sanksiyalar tətbiq ediblər. Öncə həmin bankı ABŞ dollarına əsaslanan maliyyə sistemindən kənarlaşdırıblar. ABŞ həmçinin amerikalılara Rusiyaya yeni sərmayə qoymağı qadağan edib və Moskvaya ABŞ banklarındakı pullarla dövlət borcu olanlara ödəniş etməyi qadağan edib.Çərşənbə günü Rusiyanın ciddi şəkildə məhdudlaşdırılmış rublu altı həftənin ən yüksək səviyyəsinə qalxsa da, ABŞ Xəzinədarlığı rəsmilərinin məlumatına görə, sanksiyalar Rusiyanı yenidən sərt, 1980-ci illərin sovet tipli qapalı iqtisadiyyatına çevirməyə başlayır. Lakin ABŞ-ın sanksiyalarında Rusiyaya enerji ixracından gəlir toplamaqda davam etməyə imkan verən çatışmazlıqlar var. Bu da onun Ukraynaya qarşı hərbi əməliyyatları gücləndirməyə kömək edə bilər. ABŞ-ın maliyyə naziri Janet Yellen çərşənbə günü ABŞ Konqresində çıxışı zamanı deyib ki, Avropadakı müttəfiqləri Rusiya neft və qazından o qədər asılıdırlar ki, sanksiyaların tam gücü ilə tətbiqi hələlik mümkün deyil.

Beynəlxalq Enerji Agentliyinin hesabatında maraqlı faktlar üzə çıxıb. Məlum olub ki, gündə 400 milyon dollardan çox təbii qaz istehlak edən Avropa İttifaqının ehtiyaclarının təxminən 40%-ni Rusiya təmin edir. Aİ neft idxalının üçdə birini Rusiyadan alır, yəni gündə təxminən 700 milyon dollarlıq.

Avropadakı parçalanmalar ötən həftə daha qabarıq şəkildə özünü büruzə verib. Şənbə günü Litvanın daxili istehlak üçün Rusiya qazının idxalını dayandıracağını elan etməsindən sonra Avstriyanın maliyyə naziri Maqnus Brunner Lüksemburqda jurnalistlərə deyib ki, Ru-



siya nefti və qazına qarşı sanksiyalar Rusiyadan çox Avstriyaya zərər verəcək.

## Növbəti addımlar

ABŞ Xəzinədarlığının Xarici Aktivlərə Nəzarət Ofisinin keçmiş işçisi Daniel Tannebaum bildirib ki, enerji idxalının məhdudlaşdırılmasında birliyin olmaması o deməkdir ki, təzyiqi daha da artırmaq məhdudiyyəti yaranıb, investisiya qadağası daha çox transmilli firmaları Rusiyanı tərk etməyə sövq edir. Tannebaum əlavə edib ki, daha çox sənayedə ticarəti qadağan etmək olar, bu, rusları əczaçılıqda olduğu kimi daha çox Qərb məhsullarından məhrum edəcək.

Amerika Birləşmiş Ştatları da sanksiyalar məsələsində fikir birliyinə sadiq deyil. Prezident Bayden Rusiya prezidenti Vladimir Putinlə əlaqələri tam olaraq pozmağa can atmır, digər tərəfdən Avropadakı müttəfiqlərini Rusiyaya daha çox zərbə vurmağa sövq edir. Brüsseldə aprelin 6-da keçirilən sanksiya danışıqlarında iştirak edən bir avropalı diplomatın sözlərinə görə, Almaniya və Fransa şirkətlərinin Rusiya ilə davamlı ticarətləri və rus oliqarxlarının lüks yaxtalarını və digər aktivlərini ələ keçirmək kimi hələ də qapanmalı boşluqlar var. Eyni zamanda, bu gün Amerika Konqresinin yuxarı palatası Rusiya ilə ticarət əlaqələrini kəsmək və neft idxalını qadağan edən qanunlar qəbul etmək niyyətindədir. Associated Press Senatdakı mənbəyə istinadən xəbər verir ki, qanun layihələrini demək olar ki, bir aya yaxındır müzakirə edirlər, lakin yekun qərar hələ də qəbul edilməyib. Bir çox parlamentarilər belə bir gecikmədən qəzəbləniblər. Bəziləri, məsələn, demokrat Ben Kardin qeyd edir ki, Rusiya mallarının ABŞ-a idxalı indi faktiki olaraq dayanıb. Senat çoxluğunun lideri Çak Şumer çərşənbə axşamı bildirib ki, Senat Rusiya ilə normal ticarət əlaqələrini dayandırmaq və onun neftinin idxalını qadağan etmək üçün qanun layihəsini cümə axşamı qəbul edəcək.

Hər iki qanun layihəsi Senatda batmış vəziyyətdə qalıb və Ukrayna müharibəsinin daha təhlükəli mərhələyə qədəm qoyması ABŞ qanunvericilərini məyus edib. Konqresmenlər hansı addım atacaqlarını müəyyənləşdirməkdə çətinlik çəkirlər. Sabah bunun cavabı verilməlidir. Bu məsuliyyət Senat üzvləri arasında ikitirəlik yaradıb. Nümayəndələr Palatası prezident Co Baydenin Rusiyadan idxal olunan mallara yüksək vergi tətbiq edən sənədi imzalayandan sonar bir çox şirkətlər əsl cəhənnəm əzabı şəkirlər. İndi bazar tapmaq da, tərəfdaş toplamaq da çətindir. Ona görə də məhdudiyyətlər səbəbindən sıxıntı yaşayan şirkətlər əlavə kompensasiyalar almaq üçün yuxarılara təzyiqlərini artırıblar. ABŞ prezidentinin Administrasiyası artıq bu təzyiqləri bilavasitə öz üzərində hiss etməyə başlayıb.



Martın ortalarında Nümayəndələr Palatasının məlum səsverməsi Ukrayna prezidenti Vladimir Zelenskinin Konqresdə virtual çıxışında "Rusiya hərbi maşını dayanana qədər hər həftə daim yeni sanksiyalar paketinə ehtiyac duyulur" deməsindən bir gün sonra baş tutub. İndianadan olan respublikaçı, Ukrayna əsilli ABŞ nümayəndəsi Viktoriya Sparts qanun layihəsi hazırlanarkən deyib: "Onlar sadəcə olaraq bir dəstə insanı öldürə, şəhərləri dağıda, qadın və uşaqları öldürə, sonra isə geri qayıdıb həmişəki kimi iş görə bilməzlər" deyib. Nümayəndələr Palatasından məsələyə diqqətlə yanaşma istəyib.

Ukraynada dinc əhalinin işgəncələrə məruz qalması və öldürülməsi, Kiyev ətrafında küçələrin cəsədlərlə dolu olması ilə bağlı xəbərlər bu həftə bəzi Senat üzvlərində haqlı sual doğurur, niyə qanun layihəsi hazırlanmır, buna səbəb nədir, nəyi gözləyirlər?

Nümayəndələr Palatası da təxminən bir ay əvvəl neft qadağasını qəbul etdi. Qanun layihəsi Baydenin imzası ilə Rusiya neftinə artıq tətbiq olunan məhdudiyyətləri kodlaşdıracaq. Senatda gedən müzakirələrdə bir daha vurğulanıb ki, Putin Ukraynaya qarşı etdiyi cinayətlərə görə cavab verməlidir, Putinin həmçinin soyqırımında günahkardır. "Rusiya ilə normal ticarət əlaqələrini rəsmi olaraq ləğv etmək Senat üçün ən doğru şeydir, çünki bu, Putinin iqtisadiyyatına daha bir böyük zərbə vuracaq", - senator Şumer deyib. Əlavə edib ki, bu, Putinin günahsız mülki şəxslərə qarşı vəhşi hücumlarına görə cavabdehlik daşıması üçündür.

***V.VƏLİYEV***

# "Bu görüşü ümidverici və irəliyə doğru addım adlandırmaq olar"

"Mətbuatdan da xəbər verildiyi kimi dövlətimizin başçısı Avropa İttifaqının post-münaqişə dövründə oynaya biləcəyi rolu və bölgəmizə verə biləcəyi töhfələri qeyd etmişdir. Möhtərəm Prezidentimiz Şarl Mişelin 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması yolunda davam edən səylərini də qiymətləndirmişdir. O keçən ilin dekabrında keçirilmiş Üçtərəfli görüş zamanı müəyyən edilmiş Brüssel sülh gündəliyinin bölgənin gələcək taleyindəki əhəmiyyətini də vurğulamışdı. Bu mənada Prezidentimiz Brüssel sülh gündəliyinin davamı kimi dünən Ermənistan tərəfinin iştirakının bu görüşün nəticəyönlü olacağına gözləntilərin artacağını qeyd etmişdi. Sözsüz ki, bu görüşdə də ölkəmizin Avropa İttifaqı, eləcə də Avropa məkanı üçün əhəmiyyəti, xüsusən də enerji təhlükəsizliyində, Azərbaycanın bölgədəki əvəzsiz rolu vurğulanmışdı. Bu səbəbdən də Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyi bildirilmişdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Məlahət İbra-



himqızı deyib.

Onun sözlərinə görə, bu görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin öz "Tvitter" səhifəsində paylaşdığı "tvit" və görüşün əhəmiyyəti haqqında bildirdiyi fikirlər bir daha göstərir ki, Azərbaycan üçün çox vacib məsələlər bu görüşdə cənab Şarl Mişel tərəfindən xüsusi vurğulanıb: "Onun qeyd etdiyi kimi Azərbaycan Ermənistan arasında post-münaqişə dövründə etimad mühitinin yaradılması prosesində minalanmış ərazilərin xəritələrinin, birinci Qarabağ müharibəsində itkin düşmüş dörd min nəfər haqqında məlumatların verilməsinin, tezliklə sərhədlərin delimitasiya və demorkasiyasının müəyyənləşdirilməsi və nəqliyyat-kommunikasiya xətlərininn fəaliyyəti çox vacibdir".

Deputat sözlərinə belə davam edib: "Bildiyimiz kimi qeyd edilən məsələlər davamlı olaraq müharibə bitən gündən dövlət başçımız, eləcə Azərbaycanın XİN rəhbərliyi tərəfindən də səslədirilir. Hər kəs bilir ki ötən dövr ərzində təcavüzkar Ermənistan və orada hakimiyyətdə olan revansist qüvvələr bu təkliflərin gerçəkləşməmsi üçün davamlı olaraq müxtəlif təxribat etməyə çalışırlar. Buna baxmayaraq möhtərəm Prezidentimizin titanik fəaliyyəti, müdrik, uzaqgörən və güclü diplomatiyası sayəsində Avropa İttifaqı Şurasının Prezidenti görüşün nəticəsi olaraq bu təklifləri bir daha vurğulanmış və iki ölkə arasında gələcəkdə imzalanacaq sülh müqaviləsi üçün bu təkliflərin gerçəkləşməsinin əhəmiyyətini qeyd etmişdi. Hesab edirəm ki, bu görüşü ümidverici və irəliyə doğru addım adlandırmaq olar".

***Ayşən Vəli***

# Azərbaycanda parkinqlə bağlı ciddi problemlər var

**Ötən gün sosial şəbəkədə yayılmış qeyri-adi görüntülər görənləri təəccübləndirib. Hadisə Sumqayıtda baş verib. Belə ki, 99-TD-862 dövlət nömrə nişanlı, "Mitsubishi" markalı avtomobilin qadın sürücüsü ilə "parkovşik" arasında dava olub. Xanım sürücü "parkovşik"in üstünə hücum çəkərək onu yumruq və təpiklə vurub. Hadisənin hansı səbəbdən baş verməsi barədə məlumat yoxdur. SİA məsələ ilə bağlı nəqliyyat eksperti Elməddin Muradlı və JEM sədri Ceyhun Musaoğlunun fikirlərini öyrənib.**

**Ceyhun Musaoğlu hadisəyə münasibətini belə bildirib: "Azərbaycanda, xüsusən də Bakıda parkinqlə bağlı ciddi problemlər var. İnsanlar avtomobili park etməyə yer tapa bilmirlər. Bunun üçün binaların altında saxlanc yerləri var ki, bu da çox bahadır. Qiyməti də 1 saatdan sonra 2 manat olur. İnsanlar avtomobillərini burada park edib işə gedir və 4-5 saatı da 2 manatdan hesabladıqda bu 8-10 manat puldur. Bu da elə adamın 1 ay ərzində aldığı maaşa bərabər olur.**



**Bu məsələ çox ağır problemdir və həll olunmalıdır. Xüsusi saxlanc yerləri hazırlanmalıdır. Şəhərdən kənarda, xüsusi stadion kimi meydançalar hazırlanmalıdır ki, bunun da qiyməti münasib olmalıdır. Buna görə də insanlar avtomobillərini harada olsa saxlayırlar. Hər məsələnin sivil qaydası olmalıdır. Avtomobili harada saxlasan ya cərimələyirlər, ya "parkovşik" pul istəyir, ya da problem yaşanır. Bu məsələlər həllini tapmalıdır. Xüsusi mexanizm olmalıdır. Parkinq yerləri çox bahadır. Buna görə də əksər insanlar maşını yol kənarında saxlayır".**

**Elməddin Muradlı: "Əlbəttə, Azərbaycan mentalitetində qadın isməti, qadın abrı kimi anlayışlar var. Ən pis halda belə qadınlarımız həmişə uca tutulur. Qadına münasibət də bizdə müqəddəsdir. Burada ən obyektiv yanaşma ondan ibarətdir ki, polis məsələni araşdırıb və qanuni tədbir görüb. Qadın da, kişi də qanun qarşısında eynidir. Bu qadına yaraşan hərəkət deyil.**

**Çox təəssüflər olsun ki, son vaxtlar qadın sürücülər tərəfindən çox kobud hərəkətlərə yol verilir. İnsan lap dəhşətə gəlir. Məsələn, narkotik vasitələrin və spirtli içkilərin təsiri altında avtomobil idarə edən qadın sürücülərin sayı artıb. "Parkovşik"in orada tək günahı pul yığmağı ola bilər. Qadının ona qarşı bu hərəkəti isə yolverilməzdir".**

***Ayşən Vəli***

# "Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir"

**"Bu günümüzün əsas müzakirə mövzusu dövlət başçısı İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Brüsselə işgüzar səfəridir. Səfər çərçivəsində ölkə Prezidentinin qurumun rəsmisi ilə təkbətək görüşü, eyni zamanda, Prezident İlham Əliyevin, Avropa İttifaqı Şurasının Prezidentinin və Ermənistanın baş nazirinin üçtərəfli görüşü mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Avropa İttifaqı əlaqələrinin yüksələn xətlə inkişafı istər ölkəmizin qurumla, istərsə də quruma üzv dövlətlərlə münasibətlərində özünün aydın ifadəsini tapır.**



2018-ci ildə dövlət başçısı İlham Əliyevin Belçika Krallığına səfəri çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədi bütün məqamları özündə ehtiva edir. Tarixi Zəfərimizdən sonra Avropa İttifaqının ölkəmizlə münasibətləri, bölgədə dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsinə hazır olduğunu bildirməsi, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə iki dəfə üçtərəfli görüşün keçirilməsi və sair kimi mühüm addımlar postmünaqişə dövrünün əsas reallıqlarının təqdimatıdır. Ötən ilin dekabrında Brüsseldə sülh gündəliyinin əsası qoyulmuşdur. Aprelin 6-da keçirilən görüş Brüssel gündəliyinin əsas tərkib hissəsi kimi dəyərləndirilir". Bu fikirləri Yeni Aərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə dövlət başçısı İlham Əliyevin Brüsselə işgüzar səfəri ilə bağlı SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, üçtərəfli əsasda 4 saat yarımdan artıq davam edən görüşün nəticəsi olaraq Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlar başlasın: "İki ölkənin Xarici İşlər Nazirlərinə bununla bağlı təlimat verilir. Bu, Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklifin qəbulu və bunun əsasında danışıqların aparılmasıdır. Məlum olduğu kimi bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür. Ölkəmizin təklif etdiyi sülh müqaviləsində əsas şərtlərdən biri tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıması məsələsidir. Tarixi Zəfərimizdən bir ildən artıq vaxt keçməsinə baxmayaraq Ermənistanın hələ də sülh təklifinin imzalanması ilə bağlı tərəddüdləri diqqətdən kənarda qalmır. Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyinin yenidən bərpa olunmasında maraqlı olduğunu hər bir bəyanatında ifadə edir. Amma istər ötən ilin dekabrın 14-də, istərsə də aprelin 6-da keçirilən görüşlərin sonunda qəbul olunan bəyanatda Dağlıq Qarabağ ifadəsi və ya keçmişin qalığı olan ATƏT-in Minsk qrupunun həmsədrlik institutuna istinad olmayıb. Dağlıq Qarabağ münaqişəsi artıq tarixə qovuşub və yeni səhifə açılıb. Minsk qrupunun vasitəçiliyinə gəldikdə isə 1992-ci ildə münaqişənin həllinə vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradıldığı gündən qurum vəzifəsinin nədən ibarət olduğunu dərk etmək istəmədi. Təbii ki, bunun səbəbləri var idi. Vasitəçi tərəf tuta bilməz. Neytral mövqedə dayanaraq məsələnin ədalətli həllinə öz dəstəyini göstərməlidir. Amma 30 ildə Azərbaycan tamamilə fərqli bir mənzərənin şahidi oldu. ATƏT-i Minsk qrupunun həmsədrləri işğalçını adı ilə çağırmağın münaqişənin həllinə manea ola biləcəyini bildirərək, açıq-aşkar Ermənistana dəstək missiyasını yerinə yetirdi. Qurumun fəaliyyətsizliyi, tərkibinin dəyişdirilməsi məsələsi daim gündəmin əsas müzakirə mövzularından olub. Azərbaycan 44 günlük Vətən müharibəsinin getdiyi dövrlərdə də ATƏT-in Minsk qrupunun ikili standartlara əsaslanan siyasətinin şahidi oldu. Artıq münaqişə həll olunub, Azərbaycan Ordusu dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzü təmin edib, işğala son qoyub. Bu gün postmünaqişə dövrünün reallıqlarının həyata keçirilməsinin zamanıdır. Azərbaycan ATƏT-in Minsk qrupundan postmünaqişə dövrü ilə bağlı yeni təklif gözləsə də bunun da mümkünsüzlüyü göz önündədir. Belə olan təqdirdə onun uğursuz vasitəçilik missiyasını yenidən bərpa etməyə ehtiyac varmı? 44 gündə işğala son qoyaraq münaqişəni özü həll edən Azərbaycan üçün ATƏT-in Minsk Qrupu lazımsız təsisatdır. Artıq bu qurum tarixin arxivində yer alıb. Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır. Bunun da məqsədi ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır".

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən verilən bəyanatda tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması və birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlaması barədə razılıq əldə olunur: "Delimitasiyanın tərkibi və nəticəsi olaraq sərhəddə gərginlik aradan qaldırılır. Digər tərəfdən postmünaqişə dövrünün əsas məsələlərindən biri işğaldan azad edilmiş ərazilərimizdə təhlükəsizliyin təmin olunmasıdır ki, bu da həmin torpaqlarımızın minalardan təmizlənməsinin həyata keçirilməsi ilə bağlıdır. Azərbaycan tərəfi işğalçı Ermənistandan bu ərazilərin mina xəritələrinin verilməsini tələb etsə də, təqdim olunan iki xəritənin dəqiqliyi özünü doğrultmadı. Dövlət başçısı İlham Əliyev, həmçinin keçirilən görüşlərdə itkin düşmüş şəxslərin tapılması məsələsini də gündəmə gətirir. Bəyanatda Avropa İttifaqının minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərməsi təsdiq olunur. Qurumun Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında, regionda etimad quruculuğunun həyata keçirilməsində maraqlı olması, üçtərəfli görüşlərin təşəbbüskarı kimi çıxış etməsi təqdir olunur. Əsas olan budur ki, Avropa İttifaqı qərəzsiz tərəfdir. Hər iki tərəfin-Azərbaycan və Ermənistanın quruma etimadı var. Burada xüsusilə Şarl Mişelin Prezident İlham Əliyevlə şəxsi dialoqu və təmasları mühüm şərtdir. Avropa İttifaqı Prezident İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Əvvəldə də qeyd etdiyimiz kimi, hər bir məsələnin həllində vasitəçi, yaxud təşəbbüskar kimi çıxış edən tərəf neytrallığı qorumalı, hər iki tərəfə münasibətdə ədalət meyarını əsas götürməlidir. Reallıq budur ki, Azərbaycan öz tarixi torpaqlarına qovuşub. 30 il Azərbaycanın ərazilərini işğal altında saxlayan Ermənistana dünya güclərinin təzyiqlər göstərməməsi, sanksiyalar tətbiq etməməsi onun daha böyük iddialarla yaşamasına səbəb olmuşdur. Yeni ərazilər uğrunda müharibə planını gerçəkləşdirmək məqsədilə Ermənistanın 2020-ci ilin sentyabrın 27-də həyata keçirdiyi təxribat da bunun təsdiqi idi. Nəticədə əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu öz torpaqlarında döyüşdü, işğala son qoyaraq düşməni bu ərazilərimizdən qovdu, üçrəngli bayrağımızın dalğalanmasına nail oldu. Bu gün işğalçı Ermənistanın qarşısında dayanan əsas tələb sülh müqaviləsini imzalamaqla, regionda təhlükəsizliyin təmin edilməsi, kommunikasiyaların açılması, yeni əməkdaşlıq formatlarının yaradılmasıdır. Dövlət başçısı İlham Əliyevin Brüssel səfərindən öncə ABŞ-ın Dövlət Katibi Antoni Blinkenin dövlət başçısına zəngi də bir çox məqamlara işıq salır. Telefon danışığı əsnasında Antoni Blinken aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirmişdir. Prezident İlham Əliyev regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlara başlanması, nəqliyyat bağlantıları və kommunikasiyaların qurulması üçün Azərbaycanın irəli sürdüyü təkliflərini və mövqeyini açıqlamışdır."

V.Rəhimzadə diqqəti Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin üçtərəfli görüşün yekunları ilə bağlı jurnalistlərin suallarına cavabına yönəldərək bildirib ki, qurum rəsmisinin "Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün olduqca mühümdür. Ona görə də biz bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləməklə məşğuluq və bu gecə böyük bir irəliləyişə nail olduq" cavabı hazırkı və sonrakı proseslərin aydın mənzərəsini yaradır: "Ümumilikdə hər bir görüş Azərbaycanın diplomatik qələbəsinin təqdimatıdır. Artıq Ermənistan, həmçinin dünya gücləri sülh müqaviləsinin imzalanması ilə bağlı istəklərini ortaya qoyaraq bu istiqamətdə dayanıqlı razılaşma əldə etmək məqsədilə vacib elementlərin müzakirəsinə başlayıb. Son Brüssel görüşü də təsdiqləyir ki, Avropa İttifaqı da 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində bu reallığa əsaslanır".

# Mitinq, yox, gündəm-maaş dərdi

## *Felyeton*

**Deyir "Aşığın sözü qurtaranda dalay-dalay" edər. Ayıbdır ey, aşıq ola bilmirsən, olma da. Necə aşıqsan ki, sözün bitir, aşıq nədir, sözü bitdi nədir, o, sinədəftər olmalıdır. Yalançı aşığın bir dərdi var, o da pul qazanmaq.**

Eynilə Əli Kərimli kimi. İllərdi həmin o yalançı aşıqlardandı, meydanlardadı. Ta sözü də bitib, dalay-dalayı da. Hamı da bunu görüb. Hamı da deyib ki, ta sözü bitən aşığın meydanı da bitməlidir. Gərək meydandan qovulasan, özün başını sal aşağı, çıx get də.

Aldı görək özü nə deyir: Axı gedə bilmirəm. Necə gedim, getsəm kimdi mənə qalmaqal maaşı verən? Bir də adama deyərlər ki, ağıllısan, get özünə ağıl ver. İllərdən bəri özüm üçün iş qurub, maaş alıb dolanıram. Yeri gələndə ölkədə hamıdan da yaxşı yaşayıram. Bunu qolumu çırmalayıb zəhmətlə eləməmişəm, sizin kimi saatlarla idarələrdə oturmamışam, tər tökməmişəm, canım ağrımayıb. Evimdəcə tapşırıqdı alıb, küçədə beş nəfəri başıma yığmaqla həyatımı, yaşayışımı qurmuşam. Yaxşı təminatın var. Meydandan getdi nədir, sözü bitdi nədir? "Aşığın sözü bitəndə dalay-dalay deyər",- deyirsiz. Ay qardaş, aşığın sözü bitir, mənim kimi təkrara keçsin. Gör neçə illərdir, təkrardan



döşəyə-döşəyə maaşımı alıram. Bundan asan iş var? Heç ta mənə qulaq asan da yoxdur ey, öz-özümə danışıram. Hardan qulaq asacaqlar ki. Öz aramızdır, neçə illər bu camaatın başını ağrıtdım. Tək mən yox ha, yaratdığım "aşıqlar qrupu" ilə birlikdə. Dedik, dedik, söylədik, söylədik, amma yenə öz aramızdır, bir iş görə bilmədik. Görəndə ki, camaat da əldən gedir, dedik nə edək, necə edək ki, barı bu maaş əldən getməsin. Başladıq hərdənbir var olduğumuzu hiss etdirməyə. Bax lap indiki kimi. Deyim, dinləyin:

- Ay qardaş, mənim varlığım hiss olunmalıdır, ya yox. Necə insaf sahibisiniz ki, bir parça çörəyim əlimdən çıxa. Əşi, indiki dövrdə maaşın kəsilməyi ilə canın çıxmağı birdi, bilmirsiniz? Nə edərdim, neçə illərdən bəri çalışdığım qurumdan üz çevirərdim? Əmr elədilər ki, et, mən də etdim. Bilirdim ki, bacaran deyiləm. Ta bu illər o illər deyil ki, camaatın başında min bir fırıldaq quraq. Onlar da bizə avamcasına inanalar. Bir addım da yaxına qoymazlar bizi. Gördüm belədir, bəyanattı, nədi, onun adı, onlardan eşitmişəm ey bunu da. Qaydasını dedilər, mən də əzbərləyib dedim. Dedim ki, ay camaat gəlin, Ukraynaya tərəf olaq, Rusiyaya qarşı çıxaq. Elə bunu demişdim ki, başımda bir anda milyon yumruğu birdən hiss etdim. Məni qınayırsınız, vallah bu kəlməni demək üçün maaşımı xeyli artırmışdılar bu ay. Mən də deməyə vadar idim. Niyə burnumdan gətirirsiniz axı? Mən də bir yolla dolanmalıyam, ya yox?

Başıma yumruqla döyənlər deyirlər ki, hardaydın Vətən müharibəsində. 90-cı illərdə əlbir olub satdığınız torpaqlar uğrunda qan töküləndə barı insafa gəlib səsinizi çıxarardınız. Ermənilərə qarşı bir mitinq keçirərdiniz, səsinizi dünyaya yayardınız. İndi olmusan Ukrayna sevdalısı? Kəs səsini, daha o illər deyil ki, bu Vətəni satıb-sovub oturasınız. Bu dövlət nəyi necə etməyi çox yaxşı bilir. Birincisi müharibə istəmir, ikincisi yardımlaşmağı sevir, üçüncüsü də qonşuları ilə yaxşı münasibət saxlamağı bacarır. Burada məgər sizin kimi "aşıqların" təkrar sözlərinə ehtiyac var? Vallah yumruqlardan yadımda qalan bu sözlər oldu. Amma deyilən çox söz vardı.

Bir də əyil qulağına bir söz deyim, sən Allah heç kimə demə ha. Ə vallah, niyə mən bilmirəm ki, mənim çağırışıma bir adam belə gəlməz. Ay qardaş, məsələ mitinq deyil ey, gündəm məsələsidir. Gündəmdə olmasam, bir gündəcə maaşım kəsilər. Bax, dərd bu dərddir. Bir sağa baxdım, bir sola baxdım, ta bu sonuncu sözlərə bir cavab tapa bilmədim. Bircə onu dedim ki, indi bildim bu xalq sizə nə üçün əhəmiyyət vermir. Axmağın cavabı sükutmuş...

***Mətanət MƏMMƏDOVA***

ANALİTİK+AKTUAL




# Hər sanksiya Rusiyanı daha aqressiv "YARALI AYIYA" çevirir

## Ukraynada davam edən, çoxsaylı insan itkiləri ilə müşahidə olunan və dəhşət saçan müharibə reallığı isə səngimir

**2022-ci ilin 24 fevralından başlayaraq Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Ukraynaya qarşı xüsusi hərbi əməliyyatlara başlaması ilk olaraq Avropa İttifaqı, ABŞ, Böyük Britaniya, Kanada tərəfindən sanksiyalara məruz qaldı. Nəticədə dünyaca məşhur nüfuzlu brend-şirkətlər (ərzaq, geyim, iaşə, texnika və s.) özlərinin Rusiyadakı fəaliyyətlərini dayandırdılar.**

### Rusiya səkkiz ildir çoxsaylı sanksiyalara qarşı dayana bilsə də...

Lakin Rusiya buna qədər də bir sıra sanksiyalar altına düşmüşdü. Belə ki, 2014-cü ilin martından, daha dəqiq desək, Krımın ilhaqı zamanı ABŞ, Avropa İttifaqı, Avstraliya, Yeni Zelandiya və Kanada qadağaların birinci paketini qəbul etmişdilər. Bu sanksiyalar ayrıca şəxslər üçün viza məhdudiyyətlərini, aktivlərin dondurulmasını əks etdirirdi. Həmçinin, sanksiyalara imza atmış ölkələrdəki biznesmenlərin adları qadağalar sırasına daxil olmuş şəxslərlə işgüzar münasibətlər saxlamağı da qadağan edilmişdi.

Ancaq bu da son deyildi. 2014-cü ilin aprel-may aylarından başlayaraq sanksiyaların genişləndirilməsi prosedurlarına başlanıldı və bu, daha əvvəlki sanksiyalara əhəmiyyət verməyən Rusiyanın Ukraynanın Şərqindəki situasiyanı gərginləşdirməsi ilə əlaqələndirildi. Yeni sanksiyaların təşkilatçıları artıq açıq şəkildə Rusiyanı Ukraynanın ərazi bütövlüyünə müdaxilə etməkdə ittiham edirdilər. Xüsusilə, Kremlin Donetsk və Luqansk separatçılarına silah və s. yardımları bu məsələnin böyüməsinə səbəblər yaratdı.

Daha bir sanksiya dalğası bu gün də danışılan Boeing 777 təyyarəsinin 2014-cü ilin 17 iyul tarixində Donetsk üzərində qəzaya uğraması ilə bağlı oldu. Qərb ölkələri Rusiya tərəfindən dəstəklənən silahlı qiyamçıların təyyarəni vurduqlarını iddia etdilər. 2018-ci ilin avqustunda ABŞ-ın Dövlət Departamenti Moskvaya qarşı yeni sanksiyalar kampaniyası hazırladığını bəyan etdi. Buna səbəb isə Böyük Britaniyada ikili agent Sergey Skripalın və qızı Yuliyanın "Noviçok" adlı zəhərli maddə ilə zəhərlənməsi oldu.

### Dünya ictimaiyyəti Rusiyanın bu qədər ağır qadağaların müqabilində əsla geri çəkilməyəcəyini görməkdədir

Növbəti illərdə ABŞ-ın və Avropa İttifaqının sanksiyalar rejimi tətbiq etmələrinə səbəb müxalifətçi siyasətçi Aleksandr Navalnı ilə əlaqələndirildi, yeni cərimə qaydaları müəyyənləşdirildi. Ancaq göründüyü kimi, Rusiya Federasiyası öz siyasi və s. maraqlarının təmin olunmasından geriyə addım atmadı, əksinə, daha da sərt qərarlar verdi və sanki hər bir sanksiya Rusiyanı daha aqressiv "YARALI AYIYA" çevirir...

Beləliklə, hazırda da ABŞ, Böyük Britaniya, eləcə də Avropa İttifaqı Rusiyanı Ukraynaya hərbi müdaxiləsinə görə hədəfə alırlar, üstəlik sanksiyalar tətbiq etmələri ilə yanaşı, həm də maliyyə, hərbi sursat və s. cəhətlərdən də Kiyevə öz yardımlarını əsirgəmirlər. Hələlik isə dünya ictimaiyyəti Rusiyasnın bu qədər ağır qadağaların müqabilində əsla geri çəkilməyəcəyini görməkdədir.

Aİ sanksiya siyasıhına RF prezidenti Vladimir Putini, baş nazir Mixail Mişustini, XİN rəhbəri Sergey Lavrovu, DİN rəhbəri Vladimir Kolokoltsevi, Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevi və daha bir sıra məmurları, siyasətçiləri əlavə edib.

ABŞ-ın maliyyə nazirliyinin siyahısında isə Vladimir Putinin, müdafiə naziri Sergey Şoyqunun, Rusiya silahlı qüvvələrinin baş qərargah rəisi Valeri Gerasimovun adları dayanmaqdadır. Onu da qeyd edək ki, fəaliyyətdə olan dövlət başçıları çox nadir hallarda, tək-tək olaylarda beynəlxalq sanksiyalar altına düşürlər. Yeni sanksiyaların üçüncü paketi isə ən böyüyüdür və o, əsasən maliyyə, energetika, nəqliyyat, texnologiua sektoru, həm də viza siyasətini əks etdirir. Hətta bununla bağlı Aİ-nin rəsmi jurnalında ayrıca qrafiklər də qurulub.

### Avropa diplomatiyasının rəhbəri Jozep Borrel: "Avropa İttifaqı beynəlxalq partnyorları, müttəfiqləri ilə birlikdə öz qərarında vahid həmfikirdir"

"Prezident Putin və onun hökuməti müstəqil və suveren qonşu ölkədə qarşı müharibəyə başladı. Rusiya rəhbərliyinin özünüdavranışı beynəlxalq sülhə və təhlükəsizliyə ciddi təhlükə yaradır. Bu gün biz ən sərt məhdudiyyətlərlə bağlı ölçülər götürürük. Avropa İttifaqı beynəlxalq partnyorları, müttəfiqləri ilə birlikdə öz qərarında vahid həmfikirdir...", deyə Avropa diplomatiyasının rəhbəri Jozep Borrel tərəfindən qəbul olunmuş sənəddə bəyan edilir.

Dövlət məmurları ilə yanaşı, Aİ-nin sanksiyaları dövlət qurumlarına, xarici kəşfiyyat xidmətinə, prezident administrasiyasına, iri bank sektorlarına, maliyyə xidmətlərinə, informasiya mərkəzlərinə, TV-lərə, həmçinin Rusiyanın digər bir çox nəhəng şirkətlərinə də tətbiq olunmaqdadır. Qadağaların sayı yüzlərlədir!

### Putin bəyan edib ki, bütün bunlar birbaşa körpüləri yandırmağa hesablanıb və düşmən addımı olaraq qiymətləndirilir

Və bu gün Rusiya ona qarşı tətbiq edilən qadağalara adekvat cavab verə biləcəyini bəyan edir. Məsələn, Kreml, daha dəqiq desək, RF-nın prezidenti Vladimir Putin açıq şəkildə bəyan edib ki, bütün bunlar birbaşa körpüləri yandırmağa hesablanıb və düşmən addımı olaraq qiymətləndirilir.

ABŞ və Aİ isə həmin addımlarına görə cavabsız qalmayacaqlar. Artıq ortada qarşılıq vermək prisnipi dayanmaqdadır. Qarşılıq prinsipinin isə Ukraynadakı müharibənin daha da şiddətlənməsi ilə əlaqələndirmək mümkündür. Çünki Rusiya açıq-aydın şəkildə bəyan edib ki, öz məqsədlərinə çatmayınca dayanmayacaq, əksinə, hərbi kampaniyasının əhatəsini daha da genişləçdirəcək. Lakin Rusiyanın sanksiyalara məruz qalması reallığı yalnız onun özünə təsir etmir, həm də Avropa İttifaqına üzv ölkələrə də öz mənfi təsirlərini göstərməyə başlayır...

### Avropa Komissiyasının sədri Ursula fon der Lyayen isə bildirib ki, Rusiyaya qarşı sanksiyalar Avropanın iqtisadiyyatına zərbəsiz ötüşməyəcək

Məsələn, Ukraynadakı situasiyaya görə İsveç və Finlyandiya kimi Skandinaviya ölkələrinin iqtisadi göstəricilərinin sürətlə aşağı düşəcəyi bildirilir. Belə bir proqnozla Şimali Avropanın nəhəng banklarından biri olan Danske Bank öz hesabatında yazıb. "Biz Finlandiyada ÜDM-in artım proqnozunu 2022-ci ildə 1,7%-ə (2,8%-dən) endirmişik. İsveçdə - 3% əvəzinə 2,5% -ə qədər "deyə təşkilatın rəsmi saytındakı nəşrdə deyilir.

Həmçinin qeyd edilir ki, adıçəkilən bank Norveç üzrə artım proqnozunu (3,8%) saxlayır və Danimarka üzrə proqnozu bir faiz bəndi artıraraq 3,5%-ə çatdırır.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen isə bildirib ki, Rusiyaya qarşı sanksiyalar Avropanın iqtisadiyyatına zərbəsiz ötüşməyəcək. "Mən gözəl anlayıram ki, bu sanksiyalar bizim iqtisadiyyatımıza da ağır zərbələr endirəcək. Mən bunu yaxşı bilirəm. Biz iki il ağır pandemiya şəraitində yaşamışıq və indi ümid edirdik ki, iqtisadiyyatla, sosial sferalarla məşğul olacağıq. Ancaq mən inanıram ki, avropalılar da Ukraynada baş verənlərin qarşısının alınması üçün bundan başqa çıxış yolumuzun olmadığını yaxşı anlayırlar", deyə Avrokomissiyanın sədri bildirib.

### ABŞ-ın The Hill nəşrinin yazdığına görə, Rusiya iqtisadiyyatını məhv etmək və Moskvanı cəzalandırmaq cəhdi Amerika üçün baha başa gələcək, eləcə də ağlagəlməz nəticələrə gətirib-çıxaracaq

Avropa ilə yanaşı, ABŞ-ın da tətbiq edilən sanksiyalara görə ciddi çətinliklərlə qarşılaşa biləcəyi istisna olunmur. Belə ki, The Hill nəşrinin yazır ki, Ukraynadakı fəaliyyətinə görə Rusiya iqtisadiyyatını məhv etmək və Moskvanı cəzalandırmaq cəhdi ABŞ üçün baha başa gələcək, eləcə də ağlagəlməz nəticələrə gətirib-çıxaracaq.

Nəticə etibarı ilə belə bir əsaslanmaya söykənmək olar ki, Avropa məkanının Ukrayna hərbi böhranı nə Qərbi, nə də Şərqi sakitləşdirməyəcək. Ancaq düşünsək ki, Moskvanın "YARALI AYI" qismindəki davranışı aqressivlikdən ultraaqressivliyə transfer olunur, bu zaman qarşıda daha dağıdıcı fəsadların yaşanması ehtimallarının artacağını indidən proqnozlaşdıra bilərik. Bütün bunların isə qarşısını yalnız və yalnız bir qüvvə ala bilər - siyasi iradəyə dayanaraq müharibəyə son qoymaq və yaraları sarımaq...

*Rövşən RƏSULOV*

# Azərbaycan xalqı öz Prezidentinə ürəkdən inanır, etibar edir və dəstəkləyir

***Xalqların, dövlətlərin yüksəlişini təmin edən səbəb təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətlərdir. Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir.***



*Ayaz Quliyev*
*YAP Xızı rayon təşkilatının sədri*

Belə nadir şəxsiyyətlərdən biri, müasir müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq Lider-şəxsiyyət yetişdirməklə dövlətçilik tariximizin ən böyük xidmətlərindən birini göstərmişdir. 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim tale yüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", deyən Ümummilli Liderin inamı özünü tam doğrultmuşdur. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Ulu Öndərin layiqli varisi İlham Əliyevi dəstəkləyərək onu özünə yeni Prezident seçdi. Cənab İlham Əliyev xalqın iradəsi əsasında Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyuldu. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artdı.

2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqı yenidən Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevə səs verməklə ölkəmizdə dayanıqlı iqtisadi-inkişafa, tərəqqiyə, sabitliyə, demokratiyaya səs vermiş oldu. Seçkilərdə səsvermə hüququna malik olan vətəndaşların 74.3 % iştirak etmişdir. Şəffaf, azad, demokratik şəraitdə keçirilən seçkilərdə cənab İlham Əliyev Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin - 86,02 faizinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Dövlət başçısı cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizin inkişafına, güclü iqtisadiyyat quruculuğuna, dövlətin hərbi qüdrətinin və beynəlxalq nüfuzunun, dostlarının və strateji tərəfdaşlarının sayının artmasına nail oldu. Bütün bu reallıqlar Azərbaycanın qlobal arenada mövqeyinin möhkəmləndirilməsini, nəticədə ərazi bütövlüyünün və tarixi ədalətin bərpasını təmin etdi.

2020-ci il sentyabrın 27-də Qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın bir müddətdə işğal altında olan torpaqlarımız cəmi 44 gün ərzində azad olundu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalmış qətnamələrini Azərbaycan Prezidentinin rəhbərliyi və xalqın dəstəyi ilə Şanlı Ordumuz icra etdi. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan xalqı 2018-cü ildə yenidən düzgün seçimini etmiş, ən mühüm tarixi qərarını vermişdir. Azərbaycan xalqı öz Prezidentinə ürəkdən inanır, etibar edir və dəstəkləyir.

# "Xaricdəkilər də elə Əli Kərimli ağıldadır"

**"Mən artıq nə Əli Kərimlini, nə də onun kimiləri qınamıram. Yazıqlar neynəsinlər? Otuz ildir xaricdən milyonlarla pul alıblar ki, hakimiyyətə gələcəyik, ölkəni də sərəcəyik sizin ayaqlarınızın altına, nə maraqlarınız varsa hamısını təmin edəcəyik". "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.**



Təhmasib Novruzov bildirdi ki, xaricdəkilər də elə Ə.Kərimli və digərləri kimi ağıldan bir az kasad olduqlarına görə, bunlara inanıb, milyonları axıdıblar: "İndi baxırlar ki, mayaları batır, yapışırlar bu diligödək siyasi dələduzların yaxasından ki, heç olmazsa qışqırıb-bağırın, səs-küy salın, görək Azərbaycan hakimiyyətindən maraqlarımız üçün nə qopara bilirik. Diligödəklik də pis şeydi axı! Ona görə də, məcburdurlar ki, boş gilizi qoyub tüfəngə guruldatsınlar, sonra da ağalarına hesabat versinlər ki, baxın, biz hələ ölməmişik. Amma özləri də gözəl bilirlər ki, onlar canlarını (əlbəttə, siyasi mənada) çoxdan tapşırıblar. Siyasi meyitlərin də belə çabalamaları təbiidir. Baxın, təxminən bir il əvvəl Əli çıxdı partiyadaşlarının qarşısına və etiraf elədi ki, biz artıq məğlubuq və heç vaxt hakimiyyətə gələ bilməyəcəyik. Adama deyərlər, hakimiyyətə gələ bilməyəcəyinə əminsənsə, bəs niyə hür..., üzr istəyirəm, qışqırırsan? Çəkil siyasətdən, get normal bir biznes qur, dolan də... Gərək belə siyasi bizneslə özünü də, ağalarını da rüsvay edəsən? Bu yerdə məşhur məsəl yadıma düşdü: itə deyirlər niyə hürürsən, deyir qorxuzuram, deyirlər quyruğunu niyə bululyursan, deyir özüm də qorxuram. İndi bilə-bilə ki, bu millət onların dabbaxdakı ağınmış gönlərinə yaxşı bələddir və onlara heç vaxt iqtidarlıq səlahiyyəti verməyəcəklər, yenə arxalarını yerə qoymaq istəmirlər. Qoya da bilməzlər, çünki borcları var. Borclarını ödəmək üçün də gecə-gündüz başlarını dəng eləyirlər. Ona görə də, bunları qınamaq lazım deyil. Qoy qışqırsınlar, yaqin boğazlarının deşilən vaxtı olacaq".

*Gülyana*

ŞƏRH+AKTUAL



# Şarl Mişel jurnalistlərə nə dedi?

## Avropa İttifaqı Şurasının prezidenti Brüssel görüşünü məhsuldar adlandırıb və sülhün əldə edilməsi üçün prosesin başlandığını bəyan edib

Məlum olduğu kimi, aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi. Görüşdən sonra özünün tvitter akkauntunda foto paylaşan Şarl Mişel üçtərəfli görüşün məhsuldar keçdiyini yazıb və qeyd edib ki, tərəflər sülh danışıqlarının başlanmasına hazır olduqlarını nümayiş etdiriblər.

Eyni zamanda, Aİ Şurasının rəhbəri qeyd edib ki, rəhbərlik etdiyi qurum gərginlikləri aşmaq və Cənubi Qafqazda təhlükəsiz, sabit, sülhyönümlü mühitin çiçəklənməsi naminə hər iki ölkə ilə sıx əməkdaşlığını inkişaf etdirmək niyyətindədir.

### "Cənubi Qafqazda sabitlik və təhlükəsizlik mühiti Avropa İttifaqı üçün çox mühümdür

Şarl Mişel üçtərəfli görüşdən sonra jurnalistlər üçün brifinq keçirib və sualları cavablandırıb. "Biz indicə Prezident İlham Əliyevlə və baş nazir Nikol Paşinyanla möhtəşəm və çox məhsuldar görüş keçirdik. Cənubi Qafqazda sabitlik və təhlükəsizlik mühiti Avropa İttifaqı üçün çox mühümdür", deyən Aİ Şurasının prezidenti əlavə edib ki, rəhbərlik etdiyi təşkilat etimadın əldə edilməsi üçün ölçülərin götürülməsi istiqamətində bütün pozitiv səyləri dəstəkləyir və bu gecə böyük tərəqqiyə nail olunub: "Bu isə o deməkdir ki, biz sülh danışıqları üçün konkret prosesin başlanmasına, mümkün sülh danışıqlarının hazırlanmasına və bu razılaşmaya lazım olan bütün vacib elementləri həll etmək üçün birlikdə qərar verdik.

### "Aramızda güclü kommunikasiya və koordinasiya yaradılacaq"

Şarl Mişel həmçinin həssas məsələ olan birgə delimitasiya komissiyası ilə bağlı işçi qrupunun yaradılması istiqamətində razılığa gəlindiyini bildirib. "İnanıram ki, qarşıdakı həftələrdə tərəqqi əldə etmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya yaradılacaq", deyə o bildirib. Sülh sazişinin imzalanmasının nə qədər zaman aparacağı ilə bağlı sualı cavablandıran Aİ Şurasının prezidentinin sözlərinə görə, bunu proqnoz etmək çətindir.

### "Proses bu gecə başlayıb"

Lakin o, dekabr ayında Brüsseldə keçirilən birinci görüş zamanı hər iki liderin narahatedici suallarla bağlı qarşılıqlı dinləmə marağında olduqlarını hiss edib və bu, birinci mühüm elementdir. "Bununla yanaşı, mənim hər iki liderlə telefon danışıqlarım olub. Biz hazırkı görüşə diqqətlə hazırlaşırdıq. Ona vaxt ayırırdıq. Sizə məlum olduğu kimi, nahar öncəsi mən hər iki liderlə ikitərəfli görüş keçirdim. Açığını desəm, biz çox gərgin işləyirik, irəliləmələr var", deyən Aİ Şurasının prezidenti hesab etdiyini bildirib ki, birgə əməkdaşlıq prioritetləri konkret addımların atılmasına münbit şəraitlər yaradır.

Mövcud prosesin sülh razılaşmasına nə qədər yaxın olduğu ilə bağlı verilən sualı da cavablandıran Şarl Mişel bildirib: "İnanıram ki, bu gecə biz doğru istiqamətdə əhəmiyyətli addım atdıq. Əlbəttə, bu, o demək deyil ki, hər şey həll olunub. Lakin bu, o deməkdir ki, biz tərəqqi əldə etmişik, ona görə ki, mühüm elementlərin nədən ibarət olduğunu yaxşı anlayırıq".

Jurnalistlərin "proses başlayıb?" sualına qısa cavab verən Avropa İttifaqının rəhbəri "Proses bu gecə başlayıb", deyə vurğulayıb.

*Rövşən RƏSULOV*

# Erməni cəmiyyəti Sarqsyan və Koçaryanı zibilliyə tullayıb

## BRÜSSEL REALLIĞI

### Armenianreport: ”Paşinyanı sevməmək olar, amma serjikçilərə və koçaryançılara olan nifrət dəfələrlə güclüdür”

Təhlil

***Baş tutana qədər ətrafında çoxsaylı müzakirələr və müxtəlif mülahizələr, rəylər, müzakirələr aparılan növbəti Brüssel görüşü başa çatdı və söz yox ki, bu əhəmiyyətli randevunun əsas nəticələrindən biri də əldə edildi - Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderlərinin görüşündə sərhədlərin delimitasiyası ilə bağlı ilkin razılaşmalara start verildi.***

Artıq bununla bağlı hər iki ölkənin rəhbərləri prosesin həyata keçirilməsi üçün XİN-nə tapşırıqlarını da veriblər. Ən əsası isə,





növbəti Brüssel görüşü bilavasitə Azərbaycan Prezidenti İlham Əliyevin bugünə qədər irəli sürdüyü tələblərinin və bəyanatlarının realizə olunması istiqamətində keçirildi. Lakin bu görüşün Ermənistanda necə qiymətləndirilməsi, erməni cəmiyyətinin, siyasi-ictimai çevrələrinin, habelə KİV-lərinin münasibətləri də istər-istəməz maraq doğurmaqdadır.

**Erməni müxalifətinin rüsvayçılığı: Sarqsyan-Koçaryan cütlüklərinin növbəti Brüssel görüşünə qarşı çıxmaları niyə uğursuzluqla nəticələndi?**

Əbəs deyil ki, Brüssel görüşü ərəfəsində Ermənistanın eks-prezidentləri timsalında fəaliyyət göstərən revanşist qüvvələri müxtəlif cəhdləri ilə onun baş tutmamasına səylər göstərdilər.

Misal üçün, ölkə daxilində anti-Rusiya ruhunun formalaşdığını, bunun arxasında məhz Nikol Paşinyan hakimiyyətinin dayandığını sübut etməyə çalışdılar. Və belə bir məqamda, aprelin 5-də İrəvanda mitinq keçirən revanşçılar, həm də Rusiyadan dəstək alacaqlarını sandılar. Amma onların aksiyalarının uğursuzluqla nəticələnməsi, həm də onu göstərdi ki, bu gün erməni cəmiyyətinin əksər çoxluğu artıq bütün bunlardan, xüsusilə də ”sabiqlərdən” bezib.

**Tevos Arşakyan: ”Ölkənin miqyası baxımından azölçülü mitinq göstərdi ki, fəaliyyətdə olan hakimiyyətin ötən il parlament seçkiləri nəticəsində qazandığı etimad mandatı saxlanılmaqdadır”**

SİA xəbər verir ki, Ermənistanın armenianreport analitik saytının siyasi şərhçisi Tevos Arşakyan sözügedən mövzu ilə bağlı çıxış edərək müxalifətin mitinqinin uğursuzluqla nəticələndiyini bildirib. Xüsusilə, aksiyaya qatılanların sayının 10-11 min nəfərdən ibarət olmasını ölkə əhalisinin yalnız 1 %-ni təşkil etdiyini yazan erməni analitiki məhz bu reallığın çox şeydən xəbər verdiyini bildirib və maraqlı statistikanı təqdim edib. SİTAT: ”Birincisi, paytaxt Paşinyana sarı, ya da qırmızı kart göstərmədi. Nikol Vovayeviçin ölkədə hakimiyyəti ələ aldığı 2018-ci ilin baharını



xatırlayaq. Nə qədər xalq onu dəstəkləməyə çıxmışdı? Müxalifətin dünən (aprelin 5-ni nəzərdə tutur-R.R.) çıxardığı insanlardan dəfələrlə, hətta on dəfələrlə daha çox. Ölkənin miqyası baxımından azölçülü mitinq göstərdi ki, fəaliyyətdə olan hakimiyyətin ötən il parlament seçkiləri nəticəsində qazandığı etimad mandatı saxlanılmaqdadır”.

**Erməni analitiki: ”Paşinyanın Brüsselin vasitəçiliyi ilə Əliyevlə danışıqlar aparmasına cəmiyyətdə güclü tələb mövcuddur”**

”İkincisi, müxalifət Paşinyanı məğlub siyasət yürütməsinə, Ankaranın və Bakının maraqlarına xidmət etməsinə görə ittiham edir. Lakin xalq buna getmədi... Bununla yanaşı, cəmiyyətdə ruh və texniki sarıdan müharibəyə hazırlığın olmadığı, yeni müharibənin daha böyük kədər və problemlər yaradacağı anlayışı var”, deyən erməni analitik digər faktlara da toxunub: ”Bizdə heç Baş qərargah rəisi də yoxdur ki, müharibəni aparsın. Ona görə də Paşinyanın Brüsselin vasitəçiliyi ilə Əliyevlə danışıqlar aparmasına cəmiyyətdə güclü tələb mövcuddur”.

”Üçüncüsü, mitinq göstərdi ki, ”müharibə partiyasının”, ”keçmişlərin”, ilk növbədə Sarqsyanının və Koçaryanın reytinqi çox aşağı səviyyədədir. Paşinyanı sevməmək olar, amma serjikçilərə və koçaryançılara olan nifrət dəfələrlə güclüdür”, deyə armenianreport-un təhlilçisi yazır və qeyd edir.

**Xatırlatma: ”Biz ağır günlərimizi keçiririk, amma onların hakimiyyətlərindəki ”gözəllikləri” də xatırlayırıq, çünki amneziyadan əziyyət çəkmirik”**

”Paşinyan, belə demək mümkündürsə, Ermənistanın siyasi sahəsində pislər qarşısında mövcud olanlardan ən yaxşısıdır. Mübahisəsizdir ki, bu gün Ermənistan son 100 ildə özünün ən ağır dövrünü yaşayır, ancaq belə bir vəziyyətdən nə Koçaryanın, nə də Sarqsyanın vasitəsi ilə çıxa bilməmək artıq dəqiq olaraq kömək etməyəcək”, deyə Arçakyan yazır və əlavə edir: ”Onlar hələ də öz hakimiyyətlərini bərpa etmək üçün ciddi-cəhdlər göstərirlər, ancaq bu da dəqiqdir ki, belə cəhdlər erməni xalqının marağını əks etdirmir. Biz ağır günlərimizi keçiririk, amma onların hakimiyyətlərindəki ”gözəllikləri” də xatırlayırıq, çünki amneziyadan əziyyət çəkmirik”.

Daha sonra bildirilir ki, müxalifətin mitinqlərinin əsas təşkilatçısı məhz Rusiyadır: ”Dördüncüsü, bu mitinqin haradan əsməsi erməni cəmiyyətinə aydındır - Rusiya tərəfindən. Moskva ondan çox narahatdır ki, Qərb bizim regiondakı proseslərə yüksək maraq göstərməyə başlayıb, Brüsseldə Əliyevlə Paşinyanın görüşünü təşkil edib. Və mitinqin tarixi də təsadüfən seçilməyib - Brüssel görüşünə bir gün qalmışa qədər. Hədəf - Paşinyana xəbərdarlıq etməkdir”.

**Son qərar: ”İnamla deyə bilərik ki, aprelin 5-i yerləri parlamentin divarları arasında və Ermənistanın siyasi həyatında deyil, məhz tarixin zibilliyində olan Rusiyayönlü müxalifətin rüsvayçı və süquta uğrayan günüdür”**

Tevos Arşakyan qeyd edir ki, mitinqə bir sutka qalana qədər ”Ermənistan” fraksiyasının deputatları



Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkindən məsləhətlər almağa qaçdılar. Seyran Ohanyan, Armen Gevorkyan, Vage Akopyan, Armen Rustamyan və Aqnesa Hamoyan aksiyada özlərini necə aparacaqları, nə danışacaqları, diqqəti hansı vasitələrlə aksentləşdirmələri ilə bağlı dəqiq instruksiyalar aldılar: ”Müvafiq ”məsləhətlər” bizim cəmiyyətin diqqətindən kənarda qalmadı. Və bu gün Rusiyanın hansı reytingə malik olması və bizim həmvətənlərimizin ona necə münasibət göstərməsi kimsəyə sirr deyil.

Lakin ”sabiqlər” öz işlərində qazanc əldə etmək istəyirlər və hər kəsi inandırmağa çalışırlar ki, anti-Rusiya münasibətləri erməni dövlətçiliyinə arxadan vurulan zərbədir. Bundan əlavə, kimlər ki, Rusiyaya etibar etmirsə, onlar belə insanları anormal adlandırırlar. Bəli-bəli, məhz bu cür ”artsaxın xarici işlər naziri” (dırnaqlar bizimdir - R.R.), ”sabiqlərin” güllə darağında olan David Babayan hesab edir. Yəni ya Rusiya uğrunda fəaliyyət apar, ya da səni anormal elan edəcəklər.

Ümumiyyətlə, şəxsi nöqteyi-nəzərinə olan qadağa Koçaryanla Sarsyanın metodları olaraq qalmaqdadır. Bəs biz ”sabiqlərin” anlayışına və qanunlarına geri dönmək istəyirikmi? İnanıram ki, yox. Paşinyan necə olursa-olsun, amma dəqiq budur ki, o özünün siyasi opponentlərinin ağızlarını bağlasa da əhalinin ağzını bağlamır. Və son 4 ildə biz buna alışmışıq. Ona görə də inamla deyə bilərik ki, aprelin 5-i yerləri parlamentin divarları arasında və Ermənistanın siyasi həyatında deyil, məhz tarixin zibilliyində olan Rusiyayönlü müxalifətin rüsvayçı və süquta uğrayan günüdür.

***Rövşən RƏSULOV***

# Qarabağ savaşının dəhşətli faciələri:
## AĞDABAN SOYQIRIMI

**Hər dəfə Ermənistanın qanunsuz, beynəlxalq konvensiyalara ziddir əməllərindən, xalqımıza qarşı törətdikləri qətliam, soyqırımı və faciələrdən yazarkən böyük bir xalqın kiçik bir "dövlət"in terrorizminə, vandallığına məruz qaldığını görürük. Yaşadığımız acı nəticələr xalqımızın tarixinin müxtəlif dönəmlərində 200 ilə qədər olan tarixində silinməz izlər saldığı hər kəsə yaxşı bəllidir. Yaxın zamanda bir-birinin ardınca Xocalı soyqırımını, 31 Mart Azərbaycanlıların Soyqırımı günlərini, Başlıbel faciəsini xatırlayıb ermənilərin xalqımızın başına açdıqları bu və digər oyunların insanlarımıza nə qədər acılar və ağrılar yaşatdığının bir daha şahidi olduq. Hadisələri gedişi göstərir ki, təkrarlanan bu hadisələr ermənilərin "Böyük Ermənistan" yaratmaq istəklərini reallaşdırmaq, özgə torpağı üzərində "ərazisini" genişləndirmək niyyəti daşıyır. Tarixin müxtəlif dönəmlərində torpaq itkilərinə, fəlakət və böyük dağıntılara məruz qalan Azərbaycana sarsıdıcı zərbələr vurmaqda davam edirlər.**

Tarixdən məlumdur ki, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri bağlanıldıqdan sonra ermənilər kütləvi surətdə Azərbaycan ərazilərinə yerləşdiriliblər. Bu siyasət uzun illəri əhatə etmiş və ermənilər Azərbaycan torpaqları hesabına öz coğrafi ərazilərini kifayət qədər genişləndirə bilmişlər. Ötən əsrdə 1948-1953-cü illərdə azərbaycanlılar Ermənistandan çıxarıldı, daha sonra isə 1988-ci ildə kütləvi qırğınlarla müşayiət olunan deportasiyaya məruz qaldılar. Təbii ki, doğma el-obasından qovulan azərbaycanlılar həm insan, həm də böyük maddi itkilərə məruz qalmış oldular.

### AZYAŞLIYA QIYAN, İNSANLARI ŞİKƏST, KOR EDƏN FAŞİST İDEOLOGİYASI

Ötən əsrin son illərində erməni təcavüzkar siyasətinin məntiqi olaraq məlum tarixi torpaqlarımız işğal olundu. Statistik rəqəmlərdə qeyd olunduğu kimi, təcavüz nəticəsində 20 minə yaxın azərbaycanlı qətlə yetirilib, 100 min nəfər yaralanıb, 50 mindən çox adam əlil olub  Bu rəqəmlərdən aydın olur ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilik, vandallıqdır. Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsinin müəllifi olan bir "xalq"ı öz adı ilə çağırmalıyıq. Əgər Ermənistan işğal etdiyi ərazilərdə (işğal dövründə) 900-ə yaxın yaşayış məntəqəsi, 2389 sənaye və kənd təsərrüfatı obyekti, 131 minə yaxın ev, 1025 məktəb, 798 səhiyyə obyekti, eləcə də 927 kitabxana, 100-dən artıq arxeoloji abidə, həmçinin 454 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı erməni təcavüzünün qurbanı olubsa, buna vəhşi, təcavüzkar "xalq"ın vandallığından başqa ad vermək olmaz.



### 8 NƏFƏR 90-100 YAŞLI QOCA, 2 NƏFƏR AZYAŞLI UŞAQ, 7 NƏFƏR QADIN DİRİ-DİRİ ODDA YANDIRILDI





Bu gün Qarabağ savaşının ən dəhşətli faciələrindən biri olan Ağdaban soyqırımından 30 il ötür. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biridir. Azərbaycanın gözəl guşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni seperatçılarının Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımdır. Xocalı faciəsində bir gecənin içində bir şəhər yer üzündən silindiyi kimi, Ağdaban soyqırımı zamanı da bütöv bir kənd tamamilə yandırılmış, yüzlərlə dinc sakinə qeyri-insani işgəncələr verilmiş və yurdundan didərgin salınmışdır. Faciə baş verən zaman səhərə yaxın erməni quldurları Ağdaban yalında keşik çəkən 3 nəfəri qətlə yetiriblər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub, səhər saat 6-da silahlarla nərilti qoparmağa başlayıblar. Qəfil yuxudan oyanan kənd camaatı özünü itirib. Erməni qarətçiləri planlı surətdə hərəkət ediblər. Belə bir vəziyyətdə aprelin 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşirin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum ediblər. Erməni quldurları tərəfindən kənd sakinləri amansızcasına öldürülüb, kənd evlərinin əksəriyyəti yandırılıb və qarət edilib. Aşıq Şəmşirin evi və zəngin arxivinə od vurularaq, külə döndərilib. Ağdaban faciəsi Kəlbəcərin ən kədərli, sözlə ifadəsi çətin olan səhifəsidir.

Faciə zamanı 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.

### HƏRB QANUNLARINA VƏ BEYNƏLXALQ KONVENSİYALARA SIĞMAYAN FACİƏ

İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına dair konvensiyalara sığmayan faciəyə "imza atan" erməni qəsbkarları qırğın zamanı Kəlbəcər rayonunun bu dilbər guşəsində, eyni zamanda, bütün tarixi abidələri, qaynaqları da məhv ediblər.

Ağdaban qırğınının səhəri günü - aprel ayının 9-da camaat hər yerdən gəlib rayon mərkəzinə toplaşıb. Xalqın iradəsi ilə "Kəlbəcərin müdafiəsi üçün fövqəladə yardım komitəsi" yaradılıb. Komitə, qısa müddət ərzində, böyük tədbirlər həyata keçirib. Orduya kömək xeyli artırılıb. Əhalidə müdafiə olunacağına ümid yaranıb. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq, Azərbaycanın mədəni sərvətlərini talamışdır.

### ŞƏHİD, KƏND VƏ ŞƏHƏRLƏRİN QİSASI ALINDI

1993-cü il mart ayının 27-də erməni fitnəkarları yenə də Kəlbəcərə hücumu Ağdabandan başlayıb. Ermənilər Ağdaban kəndinə hücum edib və onu ikinci dəfə viran ediblər. Bu gün şəhid kənd və şəhərlərin, faciə, soyqırımı qurbanları olanların qisası alındı. Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. İşğal altında olan şəhər, kənd və qəsəbələrimiz Azərbaycan ordusu tərəfindən azad olundu. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsi qələbəmizlə sona çatdı. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan məğlub edildi.

Ermənistan ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq əməllərinin şahidi olduq. Ən dəhşətlisi gecə yatmış insanlara qarşı belə cinayətin törədilməsi zamanımızın qaniçənliyidir, bu insanlar yer üzünün lənətlənmişləridir. Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Elə Bərdədə yaşanılan hadisələr ermənilərin faşist əməllərini təsdiqlədi. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələrini endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Vətən müharibəsində dünyanın gözü qarşısında cinayətlər törədən ermənilər bir daha faşist ideologiyalarını ortaya qoymuş oldular.

### "XXI ƏSRDƏ YAŞAYIRIQ VƏ XXI ƏSRİN ƏLAMƏTLƏRİ HƏR BİR ÖLKƏ ÜÇÜN ƏSAS OLMALIDIR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Ermənistanda başa düşməlidirlər ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır". Dövlət başçısı onu da qeyd etmişdir ki, biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin: "Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir".

Uzun illər dövlət başçısının apardığı danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında məğlub oldu.

Qarabağ uğrunda Ermənistan və Azərbaycan arasında baş vermiş 44 günlük Vətən müharibəsinin Zəfər ilə başa çatmasından sonra bölgədə nəinki yeni siyasi, eləcə də yeni iqtisadi vəziyyət yaranıb. Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 il idi ki, Ermənistan tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Faktlara nəzər salsaq, görərik ki, Kanadanın First Dynasty Mines şirkəti Kəlbəcərin "Söyüdlü" qızıl yatağının istismarı ilə məşğul olub. Bu, beynəlxalq konvensiyalara zidd əməldir. Artıq Azərbaycan öz tarixi torpaqlarına sahibdir. Bütün sərvətlərinin - yeraltı və yerüstü sərvətlərinin sahibidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Dağılan yollarımız, batan pullarımız: Onu bağışlamaq olarmı?

**Baha qiymətə çəkilən yollarımız dağılıb gedir, dövlətimizin pulları batır, əhali əziyyət çəkir- belə hallara səbəb olanlar ciddi cəzalandırılmalıdır**

Azərbaycanda son illərdə aparılan genişmiqyaslı yol tikintisi və yenidənqurması işləri ölkənin avtomobil magistrlallarının müasir vəziyyətə gəlməsi, sürücülər və sərnişinlər üçün rahatlıq yaratması ilə yanaşı cəmiyyətdə müəyyən tənqidi fikirlərin səsləndirilməsi ilə müşayiət olunur. Söhbət bu yolların tikintisi üçün ayrılan vəsaitlərin başqa ölkələrdə müqayisədə xeyli yüksək olmasına baxmayaraq keyfiyyətsizliyi, tez sıradan çıxması ilə bağlı faktlardan gedir. Bəs bu sahədə hansı problemlər var, başqa ölkələrlə müqayisədə yol tikintisi və təmirinin qiyməti və keyfiyyəti hansı səviyyədədir, bu sahədə korrupsiya ya yol verilməsi iddiaları hansı əsaslara söykənir? Bu suallara aydınlıq gətirməyə çalışdıq.

Azərbaycan inkişaf etmiş yol infrastrukturuna malikdir. Belə ki, ölkəmizdə respublika əhəmiyyətli yolların uzunluğu 5 min, yerli əhəmyyətli yolların uzunluğu isə 15 min km-ə çatır, həm də bu yolların çox böyük hissəsi dünya standartlarına uyğun şəkildə yenidən qurulub. Son 15 il ərzində 15 min kilometrə yaxın yol təmir olunub və ya yeni salınıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir. Təkcə Avropada 50-dən artıq ölkə olduğunu nəzərə alsaq, bu, çox yüksək nəticə sayılır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2004-cü ildə verdiyi Sərəncamı bölgələrimizdə yol sistemini tamamilə dəyişdi. Keçən dövlərdə ölkə prezidenti tərəfindən bu məqsədlə çoxsaylı sərəncanlar, tapşırıqlar verilib və xeyli layihələr həyata keçirilib. İndi region əhalisi daha rahat, daha müasir, daha geniş yollarla istədiyi məntəqəyə tez və təhlükəsiz şəraitdə gedib gəlir. Əlbəttə, bu yollar təkcə sosial deyl, həm də böyük iqtisadi əhəmiyyətə malikdir.

2004-cü ildən bu yana ölkədə 12 min km-ə yaxın yol təmir olunub və ya yeni tililib. Artıq Xınalıq kimi ən ucqar dağ kəndlərinə müasir yollar çəkilib, rayonlararası, kəndlərarası yollar təmir olunub ki, bu da region əhalisinin rahatlığını təmin edib. Bu isə öz növbəsində turizmin də inkişafına və turistlərin rahat hərəkətinə zəmin yaradır. Əvvəllər gedilməsi mümkün olmayan ucqar ərazilərə indi turistlər və sakinlər çox rahat və tez gedib-gələ bilirlər.

Rayondaxili yolların və kiçik şəhərlərimizin küçələrinin də çox böyük hissəsi təmir olunub, abadlaşdırılıb. Abşeron yarımadasında yerləşən qəsəbədaxili yolların təmiri isə 2023-cü ildə başa çatacaq. Digər regionlardakı kənd və qəsəbələrin də küçələri təmir edilir, abadlaşdırılır.

Ən əsası isə, ölkəmizin əsas nəqliyyat arteriyaları olan- Bakı-Gürcüstan sərhəddi, Bakı-İran sərhəddi, Bakı-Rusiya sərhəddi magistrallarının yenidən qurulması həm İpək yolu üzrə, həm Şimal-Cənub nəqliyyat dəhlizi üzrə sərnişin və yük daşımaları xeyli intensivləşdirib. Deməli, bu yollar həm sosial, həm də iqtisadi cəhətdən böyük fayda verir və verəcəkdir.









Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2003-cü ildə verdiyi Sərəncamı paytaxtımızın mənzərəsini tamam dəyişdi. Bakıda indi şüşə kimi hamar yollar, küçələr, prospektlər göz oxşayır. Həm də, təkcə paytaxtda yox, şəhərətrafı yollarda da.

Bakı Dairəvi yolunun salınması, həmçinin Aeroport-Zığ yolunun yaradılması bu sahədə çox böyük əhəmiyyətə malikdir. İndi paytaxtın istənilən ərasizindən digər yerinə daha tez, daha rahat gedib-gəlmək mümkündür. Nəticədə, nəqliyyatın hərəkəti 2 dəfə sürətlənib, tıxaclar aradan qalxıb, sərnişinlərin və yüklərin daşınması rahatlaşıb.

Lakn bu sahədə problemlər də var. Baha qiymətə çəkilən və uzun müddət sağlam qalacağına təminat verilən bəzi respublika və beynəlxalq əhəmiyyətli yollarda ciddi problrmlər yaranır. Bəzi yollar tamamilə bərbad vəziyyəti düşüb.

Bu məsələdə günahın bir hissəsi şirkətlərin, müəssisələrin, həmçinin, kommunal təşkilatların üzərinə düşür. Belə ki, yollar və küçələr tərmir olunandan sonra ənənəvi olaraq həmin orqanların və şirkətlərin yadına düşür ki, bəs yolun o tərəfinə boru çəkilməlidir və ya kanalizasiya işləri görülməlidir. Yolu bir neçə yerdən qazıb işlərini görürlər, sonra həmin qazılan hissəsi bərbad formada örtbasdır edərək aradan çıxırlar. Nəticədə, həmin yerdə çökəklik və qabarıqlar qalır və avtomobillər ordan keçəndə atılıb düşərək zərər görür ki, bu da narazılıq yaradır. Tezliklə, yolun həmin yamaqlı hissələri sıradan çıxır və dövlət məcbur olur həmin yolu və ya küçəni yenidən təmir etsin.

Daha bir problem isə yük maşınları ilə bağlıdır. Belə ki, normadan 2 dəfə artıq yüklənmiş yük maşınları yolları və küçələri bərbad hala salır. Magistral yollarda sağ kənar zolaqların pis vəziyyətə düşməsinin əsas səbəblərindən biri də budur. Bu, xüsusilə də, Bakı-Rusiya sərhəddi magistral yolunda özünü daha qabarıq biruzə verir.

Bu yolun çəkilişinə 800 milyon manat xərclənib və dünyanın ən bahalı yollarından sayılır. Yolun sağlam işləyəcəyinə təminat verilmişdi. Lakin 7-8 il keçməmiş bu yola bərbad vəziyyətə düşdü. Özü də, bu yol betondan çəkilmişdi və respublikada ən möhkəm yol sayılırdı.

Mövzuya dünya ölkələrində yol tikintisi ilə bağlı bəzi məlumatlarla giriş vermək istəyirik. Bir müddət əvvəl Rusiya mətbuatında dünya ölkələrində yol tikintisinə xərclənən vəsaitlərin müqayisəsi bağlı araşdırma materiallar yer alıb.

Araşdırmaya görə, ABŞ-da yolun hər km-i 6 milyon, Avropa İttifaqı ölkələrində 7 milyon, Çində isə cəmi 2 milyon dollara başa gəldiyi bildirilir. Azərbaycanda isə 1 kilometr yol dövlət büdcəsinə ortalama 10 milyon dollara başa gəlir. Bəzi layihələrdə isə bu rəqəm daha yüksək olur. Orta rəqəmi götürsək, Azərbaycanda 100 milyon dollara 10 kilometr yol çəkir. Həmin vəsaitə Çində isə 50, Gürcüstanda 30, Avropada 15, ABŞ-da 17 km yol çəkilir. Bu müqayisəyə görə, bizdə yol tikintisi başqa ölkələrdən baha başa gəlir. Buna baxmayaraq, bəzi yollar tez dağılıb sıradan çıxır.

Aidiyyatı orqanların rəsmiləri mətbuatda bu mövzuda səslənən tənqidlərə cavabında bildirirlər ki, rəqəmlər arasındakı fərqi yolun keyfiyyəti, ərazinin landşaftı, işçi qüvvəsinin, tikinti materiallarının hər ölkəyə fərqli qiymətlərlə gətirilməsi bağlıdır. Onu da qeyd edirlər ki, Azərbaycanda yollara çəkilən xərclər təkcə yolun tikintisi ilə bağlı olmur, əksər hallarda körpü və tunellərin inşası, ətrafdakı tikililərin köçürülməsi üçün xərclər də bura daxil edilir.

Qeyd olunur ki, yol layihələri çərçivəsində həddindən artıq köçürmələr olur ki, bu da layihələrin ümumi qiymətinə təsir edir. Belə ki, yolların çəkilməsi üçün fərdi evlər, digər obyektlər, kommunikasiya xətləri köçürülür. Bunların da hamısı nəqliyyat layihəsinə daxil olduğu üçün bəzən ilk baxışda qiymət yüksək görünür.

Ekspertlərin fikrincə isə, istənilən ölkədə avtomobil yolu tikilərkən bütün yol boyunca yol ötürücüləri, tunellər, keçidlər, yolun çəkilməsi üçün torpağın alınmasına və köçürülən obyektlərə görə ödənilən kompensasiyalar yolun tikintisi üçün ayrılan xərclərə daxildir. Yəni, bizdə olduğu kimi, dünya ölkələrində də yolun hər km-nin tikintisi ilə bağlı elan olunan qiymətlərə bunlar da daxildir. O səbəbdən, Azərbaycanda yol tikintisinin başqa ölkələrdən dəfələrlə baha başa gəldiyini əlavə xərclərlə əlaqələndirmək əsassızdır.

Əvvəla, bizdə yolun tikintisi üçün lazım olan materialların, asfalt-betonun qiyməti başqa ölkələrdən xeyli ucuz başa gəlir. Şirkətlər bunu çox asanlıqla əldə edirlər, bəzən heç pulla da almırlar, məsələn çınqıl, qum kimi materialları havayı əldə edirlər.

İkincisi, bizdə işçi qüvvəsi müqayisə olunan ölkələrə nisbətdə daha ucuzdur. Üçüncüsü, coğrafi şərait və torpaq örtüyü heç ən çətinlərdən deyil, əksinə daha rahatlarından biridir. Bütün bunları nəzərə alanda çox baha qiymətə keyfiyyətsiz yol tikilməsi ciddi şübhələr doğrurur. Ekspertlər hesab edir ki, hətta, yüksək keyfiyyətli yol belə, indiki qiymətlərdən azı 2 dəfə ucuz olmalıdır.

Mövcud və yeni çəkilmiş yolların tez-tez təmir edilməsi problemi də ciddi narahatlıq yaradır. Bəzən, eyni yol 1 ildə 2 dəfə təmir olunur. Müqayisə üçün deyək ki, yolların dərəcəsindən asılı olaraq bu interval Rusiyada 5-12, ABŞ-da 8-14 ildir. Bir çox ölkələrdə isə 20 ilədək istismar edilən yollarda cari, 20 ildən çox istifadə olunan yollarda isə əsaslı təmir işləri aparılır.

Azərbaycanda isə yeni çəkilən yolun istismara verilmə dövrü ilə ilk cari və ya əsaslı təmir dövrü arasında vaxt intervalı, o cümlədən təmirlərarası müddətlər müəyyən edilməyib. Bu vəziyyətdən korrupsiya məqsədilə istifadə edilməsi şübhələri var.

Bu məsələ ilə bağlı ekspertlər bu fikirdədirlər ki, yeni çəkilmiş və ya təmir edilmiş yolların qısa müddətdən sonra yenidən təmirinə başlanması korrupsiya elementidir. Hesab edilir ki, Bakı-Ələt, Bakı-Rusiya sərhəddi kimi magistral yolların təmir və yenidən qurulmasına yüz milyonlarla vəsait xərclənsə də, 2-3 il keçməmiş həmin yollarda təmir işi başlanır. Halbuki, keçmiş nəqliiyat naziri tərəfindən Bakı-Rusiya sərhəddi və Zığ-Aeroport beton yollarının azı 30 il təmirə ehtiyac olmadan istismar olunacağı deyilirdi. Böyük İpək yolunda da eyni vəziyyət yarandı. Mütamadi olaraq yolun bir neçə il əvvəl çəkilmiş hissələrində təmir işləri gedir. Eyni vəziyyət şəhərdaxili küçələrdə də müşahidə olunur.

Mütəxəssislərin fikrincə, hər bir layihənin texniki-iqtisadi əsaslandırmada, layihə-smeta sənədlərində standartlar göstərilməlidir ki, bu neçə il təmirə dayanmadan istifadə edilə bilər, neçə il intervalla cari və ya əsaslı təmirə dayana bilər və s. Bunlar qanun kimi olmur, amma normativ-hüquqi sənədlər olmalıdır. Məsələn, Nazirlər Kabineti səviyyəsində.

Bu qeyd etdiyimiz hallar nəticəsində dövlətin böyük xərc və əziyyət bahasına başa gələn yollarımız dağılıb gedir. Ona görə də, aidiyyatı təşkilatlar bu məsələyə ciddi nəzarət etməli, belə hallara səbəb olanlar ciddi cəzalandırılmalıdır.

Dövlət vəsaitləri səmərəli istifadə olunmalı, görülən iş sağlam və etibarlı olmalıdır. Bu halda həm iqtisadi, həm sosial cəhətdən inkişafın sürətlənməsini təmin etmək olar.

**Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS
8 aprel
2022-ci il

# Ronaldodan şok cavab: "İki paxıl"



**"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo komandanın sabiq kapitanı Ueyn Runinin onun haqqında səsləndirdiyi fikirlərə münasibət bildirib. Belə ki, Runi "Sky Sports"a açıqlamasında 37 yaşlı hücumçunun əvvəlki kimi oynamadığını deyib. Daha sonra o, həmin studiyadan "Liverpul"un keçmiş futbolçusu Ceym Karraqerlə birgə foto paylaşıb. Ronaldo isə paylaşımın şərh bölməsinə "İki paxıl" rəyini yazıb.**

Qeyd edək ki, Runi 2004-2017-ci illərdə "qırmızı şeytanlar"da oynayıb. 2003-cü ildə "Mançester Yunayted"ə gələn Ronaldo 2009-cu ildə komandadan ayrılsa da, ötən ilin yayında kluba qayıdıb.

# Hansı içki qəhvəni əvəz edir?

Gümrahlıq və enerji almaq üçün təkcə qəhvə yox, digər içkilər də var. Qəhvə içmək qadağan edilən insanlar onu bu içkilərlə əvəz edə bilər. Belə ki, tibb elmləri namizədi, həkim dietoloq Dariya Rusakova qəhvəni nə ilə əvəz etməyin variantlarını açıqlayıb. "Çay, çikoriy, kakao, itburnu dəmləməsi, eləcə də təbii yaşıl çay kofein kimi oyandırıcı təsir edir". Lakin bu içkilərdən birini qəbul etdikdə həddən artıq oyanıqlıq, əsəbilik, həzm pozuntusu əmələ gələrsə, onu dərhal dayandırmaq lazımdır. "Çikoriy tamamilə qəhvəni əvəz edə bilər. O, rəngi, dadı, effektinə görə qəhvəni xatırladır. İtburnu dəmləməsi C vitamini ilə zəngindir, o da güc verir. Bəzi bitkilər var ki, onlar da çay kimi içildikdə stimuləedici təsir edir. Ona görə də qəhvə içməsəm, mümkün deyil deyənlər üçün çıxış yolu çoxdur".



# XƏBƏRDARLIQ: Piylənmə və şəkərli diabet bir-biri ilə əlaqəlidir

**"Təəssüf ki, piylənmədən əziyyət çəkən xəstələrin sayı gündən-günə artmaqdadır". "İki sahil" xəbər verir ki, bunu Kliniki Tibbi Mərkəzin həkim-endokrinoloqu Həcər Kazımova deyib.**

O bildirib ki, piylənmə ilə şəkərli diabet bir-biri ilə əlaqəlidir: "Hər iki xəstəlik üçün artım eyni səviyyədədir. Bütün yaş qruplarında bu özünü göstərir. Lakin uşaq və yeniyetmələr arasında piylənmə son illərdə çox artıb. Zərərli qidalardan istifadə etməyimiz bu xəstəliklərin artmasına gətirib çıxarır. Əhalinin böyük əksəriyyətində insulin rezidentliyi aşkarlanır. Bu, orqanizmdə insulinin normadan artıq olmasıdır".

O deyib ki, uşaq və yeniyetmələr əvvəllər daha aktiv idilərsə, hazırda vaxtlarını daha çox müasir texnologiyalarla keçirirlər: "Kompüter və mobil telefonlardan istifadə hərəketsizliyə gətirib çıxarır ki, bu da nəticədə piylənməyə səbəb olur" - o əlavə edib.




Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir

İxtisas fortepiano kafedrası
Professor, elmlər namizədi
Dosent, fəlsəfə doktoru

Nəfəs və zərb alətləri kafedrası
Professor

Fortepiano, orqan və klavesin kafedrası
Professor, sənətşünaslıq namizədi
Professor, elmlər namizədi

Solo oxuma və opera hazırlığı kafedrası
Professor
Professor
Xor dirijorluğu kafedrası
Professor
Baş müəllim

Musiqi tarixi kafedrası
Professor

Musiqi nəzəriyyəsi kafedrası
Professor

Konsertmeyster ustalığı kafedrası
Baş müəllim

Simli alətlər kafedrası
Professor
Müəllim

Kamera ansamblı kafedrası
Müəllim

"Şifahi, ənənəli Azərbaycan professional musiqisi və onun yeni istiqamətlərinin tədqiqi": orqanologiya və akustika elmi laboratoriyası
Aparıcı elmi işçi
Böyük elmi işçi
Böyük elmi işçi

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.
Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.



# MİLYARDERLƏRİN siyahısı dərc olundu

**Nüfuzlu xarici iqtisadiyyat jurnalı "Forbes" 2022-ci il üçün milyarderlərin siyahısını dərc edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, barbadoslu müğənni və modelyer Rihanna ilk dəfə siyahıda yer alıb.**

Alt paltarı və kosmetika brendi ilə Rihannanın sərvəti keçən il 1,4 milyard dolları ötüb. Bu günlərdə ilk dəfə ana olmağa hazırlaşan müğənni bu dəfə 1,7 milyard dollarlıq sərvəti ilə dünya milyarderlər klubuna qatılıb. 2668 nəfərlik siyahıda 1729-cu yeri tutub.

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**